RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 194 (9073) CÜMƏ, 9 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edən ölkələrdən biridir



Prezident İlham Əliyev Bakıda Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının açılışında iştirak edib

2

## Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir



Prezident İlham Əliyev Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub

3

## Təhsil müəssisələrində bərpa və yenidənqurma işləri ardıcıl xarakter alıb



Prezident İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub

4



# "Ağıllı", modern, əzəmətli

## Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzura qayıdacaq vətəndaşları üçün ən yüksək həyat standartlarını tətbiq edir

Vətən müharibəsindəki qələbə Azərbaycanın müasir tarixində yeni dövrün başlanğıcı olmaqla yanaşı, ölkədə gedən inkişaf və quruculuq proseslərini də yeni mərhələyə yüksəltdi. Bu mərhələdə prioritet işğaldan azad olunmuş bütün ərazilərimizin bərpa edilməsi, keçmiş məcburi köçkünlərin doğma yurdlarına dönüşünün təmin olunması və bunun üçün hər bir imkanın yaradılmasıdır.

### Təkmil idarəçilik

2020-ci ilin noyabrından isə dünya Prezident İlham Əliyevin möhtəşəm quruculuq əzminə şahidlik edir. Qısa dövr ərzində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən bərpa və quruculuq işlərinin miqyası olduqca əzəmətlidir. İşğaldan azad olunmuş ərazilərimizdə infrastrukturların bərpası ilə başlayan layihələr indi bir çox sahələri əhatə edir. Quruculuq işləri zamanı bu ərazilərin təbii ehtiyatlarından və iqtisadi resurslarından səmərəli istifadə edilməsi də diqqət mərkəzindədir. Azad olunmuş torpaqlar tədricən kənd təsərrüfatına da cəlb edilir və əkin-biçin işləri aparılır.

6

## ZƏFƏR sərgisi

Bəşər tarixində ilk dəfə "smart müharibə" aparan Azərbaycan hərbi qüdrətini, müasir arsenalını dünyaya nümayiş etdirdi



6

## "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 mart tarixli 2016 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 3, maddə 248; 2009, № 6, maddə 424; 2010, № 2, maddə 80, № 9, maddə 773; 2011, № 6, maddə 519; 2012, № 2, maddə 105; 2014, № 2, maddə 112, № 6, maddə 644, № 9, maddə 1027; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1521, № 9, maddə 1664; 2018, № 8, maddə 1677; 2019, № 3, maddə 492; 2020, № 3, maddə 262; 2021, № 9, maddə 1026; 2022, № 4, maddə 344) 1-ci hissəsinə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözlərindən sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Türkiyə Respublikası tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2022-ci il*

## Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi Ağalıda çalınacaq

**44 günlük Vətən müharibəsində parlaq Zəfər qazanaraq düşmən tapdağından azad edilən tarixi torpaqlarımızda həyat yenidən canlanıb. Qarabağ və Şərqi Zəngəzur nəhəng tikinti meydanına çevrilib. Hazırda bütün sahələrdə geniş quruculuq işləri aparılır.**

O cümlədən təhsil infrastrukturu da müvəffəqiyyətlə qurulur, yeni məktəblərin əsası qoyulur.

Yeni tədris ilində - 15 sentyabrda isə Azərbaycan təhsili üçün ən əlamətdar bir günə imza atılacaq, Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi Ağalıda çalınacaq.

Ağalılı müəllim və şagirdlər öz doğma məktəblərinə sevinclə qədəm basacaqlar...

6

## 40-a yaxın beynəlxalq səyahətçi Şuşaya səfər edib

Beynəlxalq səyahətçilər 3 gün ərzində Şuşa-Ağdam, Xocavənd-Füzuli, Zəngilan-Cəbrayıl marşrutları üzrə hərəkət edəcəklər.

8

## Avropanın mavi qaz kabusu

İndi hamı bir suala cavab axtarmağa çalışır. Avropa Rusiya qazı olmadan özünü mavi yanacaqla nə vaxt tam təmin edə bilər? Ekspertlərin fikrinə görə, bunun üçün ən azı 3-4 il vaxt lazım olacaq. Avropa indidən bu problemini həll etmək üçün alternativ mənbələr axtarır. Hazırda Qətərdən, Əlcəzairdən və ABŞ-dan sıxılmış qaz tədarük edir, həcmini artırmaq üçün yollar axtarır. Çünki gəmi vasitəsilə gətirilən sıxılmış qaz Avropanın mavi yanacağa olan tələbatının cüzi bir hissəsini ödəyir. Qitənin qaz təminatı üçün kəmərlə iri həcmdə qazın nəql edilməsinə ehtiyac var. Hazırda Avropada ən real variantlardan biri kimi Azərbaycan qazından istifadəyə üstünlük verilir.

10

## "Azəri Mərkəzi Şərqi" AÇG-nin doqquzuncu platforması olacaq

Tikilməkdə olan bu qurğu vasitəsilə hasilatın gələn il başlayacağı gözlənilir

7

## Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilir



"Şimal-Cənub nəqliyyat dəhlizi" ölkəmizin geosiyasi əhəmiyyətini artırır

9

# Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edən ölkələrdən biridir











**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyasının əsaslı yenidənqurmadan sonra açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, sanatoriyanın yeni binası Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən inşa olunub.

Səhiyyə naziri Teymur Musayev dövlət başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, 1914-cü ildən fəaliyyət göstərən professor Gindes adına Uşaq və Yeniyetmələr üçün Respublika Vərəm Xəstəlikləri Sanatoriyası sağlamlığına qovuşmaq istəyən şəxslərin istifadəsi üçün tam hazır vəziyyətə gətirilib. Sanatoriya üçün 300 çarpayılıq beşmərtəbəli yeni bina inşa edilib. Sağlamlıq müəssisəsində müasir avadanlıqla təchiz olunmuş laboratoriyalar, şüa-diaqnostika, poliklinika, fizioterapiya şöbələri fəaliyyət göstərəcək. Sanatoriyaya uşaqlar 6 yaşa qədər və 7-17 yaş qrupları üzrə qəbul edilir.

Sanatoriyada stasionar şəraitdə müalicə alan uşaqların 11 illik təhsili təşkil olunacaq və beləliklə, onların təhsillərində fasilələr yaranmayacaq.

Prezident İlham Əliyev sanatoriyanın fizioterapiya, rentgen otaqlarında, kliniki laboratoriyada, yeməkxanada, akt zalında, kitabxanada, palatalarda, sinif otaqlarında yaradılan şəraitlə tanış oldu.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına əsasən, vərəm ən çox ölümə səbəb olan yoluxucu xəstəlikdir. Buna baxmayaraq, vərəm sağalan xəstəlikdir. ÜST-ün ekspertlərinin fikrincə, onun aşkarlanması, müalicəsi və sağalması üçün əhalinin məlumatlılığının artırılması, qlobal epidemiyanın ləğvi və profilaktika üsulları ilə əlaqədar səylər birləşdirilməlidir. Son illər vərəmin diaqnostika və müalicəsində səmərəliliyin artırılması statistikaya da müsbət təsirini göstərib, həm yoluxma, həm də ölüm hallarında azalma müşahidə edilməkdədir.

Azərbaycan vərəmlə mübarizə tədbirlərini ən yaxşı təşkil edən ölkələrdən biridir. Ölkəmizdə də ictimai sağlamlığın əsas məsələlərindən olan vərəmlə mübarizədə dövlət proqramı və milli strategiya qəbul edilib, ixtisaslaşmış tibb müəssisələri tikilib, müasir yanaşma tətbiq olunub. Respublikamızda rəsmi qeydiyyata düşən vərəm xəstələrinin müayinəsi və müalicəsi tam dövlət hesabına həyata keçirilir.













# Heydər Əliyev Fondunun "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi uğurla həyata keçirilir












**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Suraxanı rayonunda yeni inşa edilmiş 87 saylı məktəb kompleksində yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov Prezident İlham Əliyevə məktəbdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, 1928-ci ildə inşa edilən təhsil ocağında müxtəlif illərdə təmir-bərpa işləri görülsə də, sıxlıq səbəbindən məktəbin əsaslı şəkildə yenidən qurulmasına ehtiyac yaranmışdı. Məktəbin 790 şagird yerlik binasında 54 sinif otağı var idi. Azərbaycan Prezidentinin "Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında" 2020-ci il 5 may, 2021-ci il 8 may, 2022-ci il 27 aprel tarixli sərəncamlarının icrası ilə əlaqədar məktəbin binası əsaslı təmir edilib və köhnə korpus sökülərək yerində yenisi tikilib.

Eyni vaxtda 2304 şagirdin təhsil ala biləcəyi məktəb bütün inventarla təchiz edilib. Yeni dərs ilində şagirdlərin istifadəsinə veriləcək müasir məktəb binası 82 sinif otağından ibarətdir.

Qeyd olundu ki, dördmərtəbəli korpusda sinif, əmək, hərbi, rəsm, həkim, musiqi və müəllimlər otaqları, laboratoriyalar, kitabxana, yeməkxana, idman, aerobika və akt zalları var. Məktəb zəruri mebel və avadanlıqlarla, əyani vəsaitlərlə tam təchiz edilib.

Ölkəmizdə təhsil müəssisələrinin əsaslı təmiri, yenidən qurulması və yenilərinin inşası, onların zəruri tədris avadanlığı ilə təchizatı gənc nəslin daha savadlı və bilikli yetişməsinə hesablanıb. Yeni məktəb binalarının və tədris korpuslarının inşası şagird sıxlığını aradan qaldırmaqla, həm də onların daha keyfiyyətli təhsil almasına şərait yaradır.

Beləliklə, məktəblərin infrastrukturunun tamamilə yenilənməsi Azərbaycanda təhsilin inkişafına göstərilən diqqət və qayğının daha bir təzahürüdür.

Ölkəmizdə təhsilin inkişafında, onun maddi-texniki bazasının möhkəmlənməsində Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramları və digər layihələri bu sahənin inkişafında mühüm rol oynayıb. Həmin proqram və layihələrin uğurlu olmasını şərtləndirən əsas amillərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın bu məsələləri daim diqqətdə saxlamasıdır.









# Təhsil müəssisələrində bərpa və yenidənqurma işləri ardıcıl xarakter alıb








**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Nəsimi rayonunda yeni korpusu tikilən 35 saylı tam orta məktəbdə yaradılan şəraitlə tanış olub.**

AZƏRTAC xəbər verir ki, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov məktəbdə yaradılan şərait barədə dövlət başçısına məlumat verdi.

Bildirildi ki, 1931-ci ildən fəaliyyət göstərən 35 nömrəli tam orta məktəb tamamilə yenidən qurulub, təhsil ocağının 1931-1935-ci illərdə inşa edilmiş köhnə korpusu sökülərək yenidən inşa olunub. Məktəbin 888 şagird yerlik yeni binasında 24 sinif, informatika, əmək, hərbi hazırlıq, xarici dil, musiqi, rəsm, tibb otaqları, fizika, kimya və biologiya laboratoriyaları, kitabxana, yeməkxana və akt zalı yaradılıb. Dördmərtəbəli binanın ümumi sahəsi 5454 kvadratmetrdir.

Prezident İlham Əliyev məktəbin yeni binasının çağırışa qədər hərbi hazırlıq otağında, ekosinifdə, biologiya kabinetində, informatika və rəsm otaqlarında, yeməkxanada, əmək otağında və fizika kabinetində yaradılan şəraitlə tanış oldu.



Qeyd edək ki, təhsil müəssisələrinin işinin, tədris proqramlarının müasir çağırışlara uyğunlaşdırılması, müasir əmək bazarına uyğun kadr potensialının formalaşdırılması dövlətimizin prioritetləri sırasındadır. Müasir məktəblərin tikilərək istifadəyə verilməsi, təhsil müəssisələrində bərpa və yenidənqurma işlərinin ardıcıl xarakter alması da bu prosesin tərkib hissəsidir. Bu strategiyaya Heydər Əliyev Fondu da 2005-ci ildən icra olunan "Yeniləşən Azərbaycana - yeni məktəb" proqramı ilə davamlı şəkildə dəstək verir.

Hər bir dövlətin tərəqqisi və gələcəyi onun təhsil səviyyəsi ilə birbaşa bağlıdır. Bu sahəyə qoyulan investisiya gələcəyə yatırılan sərmayə deməkdir. Dövlətimiz bu baxımdan hazırda dünyada lider ölkələrdən biridir. Heç bir ölkədə qısa müddət ərzində bu sayda məktəb tikilməyib və yenidən qurulmayıb. Çox mühüm amillərdən biri də odur ki, yeni yaradılan və əsaslı təmir olunan təhsil müəssisələri ən müasir tədris avadanlıqları ilə təchiz edilir.

## Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1209, № 10, maddə 2002; 2019, № 5, maddələr 822, 825, № 10, maddə 1588, № 12, maddə 1929; 2020, № 7, maddə 892) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin 3.0.14-cü yarımbəndi ləğv edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2022-ci il*

## Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" 2011-ci il 20 iyul tarixli 472 nömrəli, "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2015-ci il 7 dekabr tarixli 704 nömrəli və "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 2016-cı il 25 yanvar tarixli 750 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli 1463 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin nizamnamə fondu 5 642 390 (beş milyon altı yüz qırx iki min üç yüz doxsan) manatdır və dövlət büdcəsinin vəsaiti hesabına formalaşır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin nəzarət funksiyasını yerinə yetirən əməkdaşlarının xidməti geyim formasının, fərqləndirmə nişanlarının təsvirini və onların daşınması qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla üç ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan maliyyələşməni təmin etsin.

5. "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 iyul tarixli 472 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 634; 2016, № 6, maddə 1067, № 11, maddə 1841; 2018, № 9, maddə 1840; 2020, № 3, maddə 231) 1-ci hissəsi ləğv edilsin.

6. "Sumqayıt şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 7 dekabr tarixli 704 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1458) 2-ci hissəsi ləğv edilsin.

7. "Gəncə şəhərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 25 yanvar tarixli 750 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 72, № 6, maddə 1066) 2-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2022-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası ilə Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Azərbaycan Respublikası tərəfindən yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 4 iyul tarixli 1554 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 602; 2009, № 2, maddə 74, № 6, maddə 424; 2012, № 2, maddə 137; 2014, № 2, maddə 112, № 5, maddə 477; 2016, № 8, maddə 1384, № 9, maddə 1518; 2017, № 8, maddə 1590; 2018, № 8, maddə 1677; 2020, № 3, maddə 265; 2022, № 4, maddə 347) 1-ci hissəsinə "Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri" sözlərindən sonra "Azərbaycan Respublikasının energetika naziri" sözləri, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri" sözlərindən sonra "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə edilən dəyişiklik barədə Gürcüstan tərəfinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2022-ci il*

## "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiqi və Azərbaycan Respublikası Prezidentinin "N.Ə.Əmirovun "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında" 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2019-cu il 10 iyun tarixli 1226 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2020-ci il 16 aprel tarixli 1989 nömrəli sərəncamlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 dekabr tarixli 3025 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 4 dekabr tarixli 1704 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin 5.2-ci bəndinə uyğun olaraq **qərara alıram:**

"Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiqi və Azərbaycan Respublikası Prezidentinin "N.Ə.Əmirovun "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri təyin edilməsi haqqında" 2017-ci il 6 noyabr tarixli 3348 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2019-cu il 10 iyun tarixli 1226 nömrəli, "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurası üzvlərinin təyin edilməsi haqqında" 2020-ci il 16 aprel tarixli 1989 nömrəli sərəncamlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 4 dekabr tarixli 3025 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1440) 1-ci hissəsində "Elman Rüstəmov" sözləri "Taleh Kazımov" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 sentyabr 2022-ci il*

# İqtisadi Şuranın növbəti iclası keçirilib

**Sentyabrın 8-də İqtisadi Şuranın növbəti iclası keçirilib.**






Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn tapşırıqlar, 2023-cü il və sonrakı üç il üçün dövlət və icmal büdcələrinin layihələri, büdcə qaydasının hədəfləri və əməliyyat hədəfi, ortamüddətli dövr üçün dəqiqləşmiş makroiqtisadi proqnoz göstəriciləri və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda iqtisadiyyat naziri Mikayıl Cabbarovun və maliyyə naziri Samir Şərifovun məruzələri dinlənilib. 2023-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Daşkənddə Parlamentlərarası İttifaqın prezidenti ilə görüşüb

**Milli Məclisin Sədri Sahibə Qafarova Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfəri çərçivəsində sentyabrın 8-də Parlamentlərarası İttifaqın (İPU) prezidenti Duarte Paçeko ilə görüşüb.**





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsibdən verilən məlumata görə, ölkəmizin bu təşkilatla əməkdaşlığa böyük əhəmiyyət verdiyini bildirən spiker Sahibə Qafarova İPU-nun parlamentlərarası əlaqələrin və qlobal parlament diplomatiyasının inkişafındakı rolunu yüksək qiymətləndirib.

Azərbaycanın üzv olduğu beynəlxalq təşkilatlarda fəal təmsilçiliyi və təşəbbüskarlığı haqqında danışan Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi hərəkatın parlament ölçüsünü inkişaf etdirmək təklifini irəli sürüb və 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis olunub. Sahibə Qafarova Parlament Şəbəkəsinin təsis iclasında iştirakına və Bakıda keçirilən birinci konfransa müraciətinə görə Duarte Paçekoya təşəkkürünü bildirib.

Azərbaycan parlamentinin spikeri xatırladıb ki, bu ilin 30 iyun-1 iyul tarixlərində isə Azərbaycanın paytaxtı Bakı şəhərində 40 ölkədən və 8 beynəlxalq parlament təşkilatından parlament nümayəndə heyətlərinin iştirakı ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin ilk konfransı keçirilib. Sahibə Qafarova diqqətə çatdırıb ki, konfransın yekununda qəbul olunan Bakı Bəyannaməsi ümumi mövqeyimizi və baxışlarımızı əks etdirməklə, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin institusional inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. O deyib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ümumi məqsədlərə töhfə verməyə, digər parlament təşkilatları, o cümlədən Parlamentlərarası İttifaqla hamını narahat edən məsələlərin həllində birgə işləməyə hazırdır.

Parlamentlərarası İttifaqın prezidenti Duarte Paçeko təmsil etdiyi qurumla Azərbaycanın bu təşkilatın fəal üzvlərindən biri olmasından məmnunluğunu qeyd edərək, Azərbaycanın İPU-nun üzvü kimi əhəmiyyətli rolunu vurğulayıb. O, Parlamentlərarası İttifaqın qarşıdakı dövrdə fəaliyyət istiqamətləri, nəzərdə tutulan tədbirlər haqqında məlumat verib.

O, həmçinin əvvəlki dövrlərdə ölkəmizdə səfərdə olduğunu, Azərbaycan xalqının multikultural dəyərlərinin onda böyük təəssürat yaratdığını qeyd edib.

Duarte Paçeko müasir dövrdə parlament diplomatiyasının, qanunverici orqanlar arasında əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini bildirərək, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə əməkdaşlığa hazır olduqlarını diqqətə çatdırıb.

Görüşdə Parlamentlərarası İttifaqla Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi arasında əməkdaşlıqla bağlı bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

***R.CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri Sahibə Qafarova Qadın Parlament Sədrlərinin XIV Sammitində çıxış edib

Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarova Qadın Parlament Sədrlərinin "Parlament rəhbərliyi: davamlılığın və rifahın daha effektiv təmin edilməsi üçün risklərin qarşısının alınması" mövzusuna həsr olunmuş XIV Sammitində iştirak etmək üçün Özbəkistanın Daşkənd şəhərində işgüzar səfərdədir.









Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Sahibə Qafarova sammitin sentyabrın 8-də keçirilən birinci sessiyasında "Pandemiyadansonrakı qlobal bərpaya dair risklərin aradan qaldırılması" mövzusunda çıxış edib.

Milli Məclisin spikeri Qadın Parlament Sədrlərinin XIV Sammitində iştirak edən parlament nümayəndə heyətlərini salamlayaraq, bu gün parlamentlərin qadın spikerlərinin qlobal əhəmiyyətli məsələləri müzakirə etmək imkanına malik olduqlarını deyib.

Azərbaycan parlamentinin sədri COVID-19 pandemiyasının dünya birliyinə hər cəhətdən dağıdıcı təsir göstərdiyini, sosial ədalət, bərabər iqtisadi imkanlar və gender bərabərliyi sahəsində bəzi nöqsanları üzə çıxardığını bildirib. O qeyd edib ki, artıq dünya birliyi postpandemiya dövrünə qədəm qoyur və bu gün biz birgə hərəkət etməliyik. İqtisadiyyatın bərpa edilməsində bərabər hüquqlara, imkanlara və təhlükəsizliyə əsaslanan mexanizmləri gücləndirməliyik.

Spiker Sahibə Qafarova bildirib ki, parlamentlər hökumətlər və cəmiyyətlər arasında körpü olaraq bu kontekstdə önəmli rol oynayırlar. Ümumi məqsədlər naminə bu istiqamətdə xalqın seçilmiş nümayəndələrinin, hökumətin və vətəndaş cəmiyyətinin birgə səyləri mühüm əhəmiyyət kəsb edir.

Milli Məclisin Sədri qeyd edib ki, COVID-19 pandemiyasının mühüm dərslərindən biri - risklərin erkən aşkarlanmasının və qabaqlayıcı tədbirlərin görülməsinin vacibliyindən ibarətdir. Bu gün iqlim dəyişiklikləri artıq dövrümüzün ən kəskin çağırışlarından birinə çevrilir. Bu problemlə ciddi məşğul olmaq lazımdır. Günümüzün digər tələbi yaşıl texnologiyalardan geniş istifadə etməkdir. Biz bu istiqamətlərdə adekvat şəkildə hərəkət etməliyik. Nəzərə almaq lazımdır ki, yaşıl texnologiyaların tətbiqi ətraf mühitin qorunmasını təmin edəcək və yeni perspektivlər açacaq. Şübhəsiz ki, bu, bütün sahələrdə davamlı inkişafa da müsbət təsir edəcək.

Sahibə Qafarova vurğulayıb ki, COVID-19 pandemiyasının ortaya çıxardığı digər mühüm bir məsələ odur ki, qlobal problemlər onların qlobal həllini tələb edir. Kollektiv səylər və birgə tədbirlər son dərəcə vacibdir.

Parlamentin spikeri bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsləri haqqında da söhbət açıb. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının sədri kimi irəli sürdüyü təşəbbüslər həm pandemiyanın mənfi nəticələrinin aradan qaldırılmasına, həm də pandemiyanın bitməsindən sonra qlobal bərpa məsələlərinə yönəlib. Bütün dövlətlər üçün peyvəndlərə bərabər, əlçatan, vaxtında və ümumi çıxışın təmin edilməsi, habelə BMT-nin yüksəksəviyyəli qlobal bərpa panelinin yaradılması kimi təşəbbüslər COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq həmrəyliyin və əməkdaşlığın gücləndirilməsinə yönəlmişdir. Dövlət başçımızın bu təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən də geniş şəkildə dəstəklənib.

Milli Məclisin Sədri bildirib ki, Azərbaycan parlamentlərarası əməkdaşlığın qlobal miqyasda əhəmiyyətini hər zaman qəbul edib. Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan bu təşkilatın parlament ölçüsünün inkişaf etdirilməsi təşəbbüsünü irəli sürüb və beləliklə, 2021-ci ilin noyabrında Madriddə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi təsis edilib.

Sahibə Qafarova qeyd edib ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ümumi məqsədlərə nail olunması istiqamətində öz töhfəsini verməyə hazırdır və qlobal əhəmiyyətli məsələlərin həlli yollarının axtarışı üçün Parlamentlərarası İttifaqla, digər parlament təşkilatları ilə fəal əməkdaşlıq etmək niyyətindədir: "Mən Parlament Şəbəkəsinin sədri kimi, bu ilin iyun ayında keçirilən Bakı konfransında bu mövqeyi bildirmişəm".

Spiker söyləyib ki, sülh və təhlükəsizlik olmadan davamlı inkişaf və rifah haqqında danışmaq mümkün deyil. O bildirib ki, Azərbaycanın beynəlxalq aləmdə tanınmış ərazilərinin iyirmi faizi 30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılıb. Bu ərazilərdəki bütün şəhərlərimiz, kəndlərimiz, tarixi, mədəni və dini abidələrimiz məhv edilmişdir. Təxminən 1 milyon soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür, onların 52 faizi qadınlardır.

Parlamentin sədri diqqətə çatdırıb ki, Azərbaycan 2020-ci ildə öz torpaqlarını erməni işğalından azad etdikdən sonra bu ərazilərin bərpası və yenidən qurulması istiqamətində irimiqyaslı işlərə başlanılıb. Azad edilmiş ərazilər "yaşıl enerji" zonası elan edilib. Burada "ağıllı şəhər"lər, "ağıllı kənd"lər salınır. Bütün bunlar "yaşıl enerji"nin istifadəsi haqqında daha əvvəl səsləndirdiyim fikirlərə uyğundur.

Milli Məclisin Sədri Sahibə Qafarova təəssüflə qeyd edib ki, Ermənistanın həmin ərazilərdə basdırdığı minalar bu prosesə ciddi maneələr törədir. O bildirib ki, bu gün doğma yurd-yuvalarına qayıdan məcburi köçkünlərimizin, o cümlədən qadın və uşaqların həyatı ciddi təhlükə qarşısındadır. Humanitar problem olan minalar münaqişələrdən əziyyət çəkmiş bir çox digər ölkələr kimi, Azərbaycanda da iqtisadi bərpa və davamlı inkişafa ciddi əngəl yaradır. "Hesab edirəm ki, parlamentlərarası dialoqumuz bu məsələlərə də diqqət yetirməlidir", - deyə Milli Məclisin Sədri qeyd edib .

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın müdafiə sənayesi naziri "ADEX" və "Securex Caspian" sərgiləri çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev Bakıda keçirilən "ADEX" və "Securex Caspian" sərgiləri çərçivəsində Bolqarıstanın iqtisadiyyat və sənaye naziri Nikola Stoyanov, İordaniya Haşimilər Krallığının Baş Qərargah rəisi Yousef Ahmad Hamed Alhnaity, Qətər Dövlətinin Müdafiə Nazirliyinin Hərbi İstehsalat İdarəsinin rəhbəri Salem Mohammed Almarri və onların rəhbərlik etdikləri nümayəndə heyətləri ilə görüşlər keçirib.

AZƏRTAC Müdafiə Sənayesi Nazirliyinin saytına istinadla xəbər verir ki, "Bakı-Ekspo" Mərkəzində baş tutan görüşlərdə M.Quliyev qonaqları salamlayaraq onlara sərgilərdə fəal iştirak etdiklərinə görə minnətdarlığını bildirib. Qonaqlar ölkəmizdə olmaqdan məmnunluqlarını ifadə edib, "ADEX" və "Securex Caspian" sərgilərinin Azərbaycanda yüksək peşəkarlıqla təşkil edildiyini, burada əlverişli əməkdaşlıq şəraitinin yaradıldığını vurğulayıblar. Onlar sərginin əhəmiyyətini yüksək qiymətləndiriblər.

Görüşlərdə qarşılıqlı hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə olunub, digər maraq doğuran məsələlər haqqında geniş fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İspaniya arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılıb

**Sentyabrın 8-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İspaniya Krallığı Senatının sədri Ander Xil Qarsiya ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov son 30 il ərzində Azərbaycanla İspaniya arasında diplomatik münasibətlərin dostluq, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət əsasında davam etdiyini, iqtisadiyyat, ticarət, energetika, humanitar, təhsil, turizm və yüksək texnologiyalar sahələrində geniş əməkdaşlıq üçün perspektivlərin olduğunu vurğulayıb. Parlamentlərarası münasibətlərin ikitərəfli əlaqələrə böyük töhfə verəcəyi diqqətə çatdırılıb. Nazir postmünaqişə dövründə bölgədə sülhün, təhlükəsizliyin və inkişafın təmin olunmasına dair Azərbaycanın baxışları və addımları, ölkəmiz tərəfindən görülən bərpa və yenidənqurma işləri, nəqliyyat-kommunikasiya xətlərinin bərpası barədə məlumat verib.

Senatın sədri Ander Xil Qarsiya Azərbaycanın xarici işlər nazirinin səfərinin, diplomatik akademiyalar arasında memorandumun imzalanmasının ikitərəfli münasibətlərin inkişafı baxımından böyük əhəmiyyət daşıdığını bildirib. Səfər zamanı keçirilmiş ikitərəfli görüşlərin siyasət, iqtisadiyyat, ticarət və humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün önəmli olduğu qeyd edilib. Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış enerji sahəsində əməkdaşlıq üzrə razılaşmanın icrasına İspaniyanın da alternativ enerji resurslarının inkişaf etdirilməsi baxımından töhfə vermək imkanlarının olduğu diqqətə çatdırılıb.

Görüş zamanı Milli Məclisin Sədrinin 2021-ci ildə Madridə səfəri xatırlanıb və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin yaradılması qərarının məhz İspaniya paytaxtında verildiyi bildirilib.

Sonra ikitərəfli gündəlikdə duran məsələlər, regional vəziyyət barədə fikir mübadiləsi aparılıb.

**Sentyabrın 6-8-də Bakıda keçirilən beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində ən müasir silahların nümayişi və yeni müqavilələrin bağlanması üçün əla platformaya çevrilən IV Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri dünən başa çatdı. Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan bəşər tarixində ilk dəfə "smart müharibə" aparan ölkə kimi hərbi qüdrətini, arsenalını və istehsal etdiyi müasir texnikalarını, silah-sursatlarını bu sərgilərdə bir daha dünyaya nümayiş etdirdi.**



# ZƏFƏR sərgisi

## Bəşər tarixində ilk dəfə "smart müharibə" aparan Azərbaycan hərbi qüdrətini, müasir arsenalını dünyaya nümayiş etdirdi

### 30-a yaxın ölkədən 208 şirkətin ən müasir texnologiyaları təqdim olundu

Öncə onu deyək ki, "ADEX-2022" Vətən müharibəsində qazanılmış parlaq qələbədən sonra Azərbaycanın təşkil etdiyi ilk beynəlxalq müdafiə sərgisidir. Üç gün davam edən sərgilərdə geniş işgüzar proqram hazırlanmışdı. Bu proqramlar əsasında Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsi, pilotsuz sistemlərin inkişaf perspektivləri və tətbiq sahələri üzrə, müasir silah sistemləri, sursatlar və onların təyinatı, zirehli döyüş nəqliyyat vasitələrinin müasir döyüş mühitində rolu və digər aktual mövzular üzrə sessiyalar keçirildi.

Prezident İlham Əliyev sərgilərin açılışı münasibətilə göndərdiyi təbrik məktubunda vurğuladığı kimi, artıq ənənəvi xarakter almış "ADEX" sərgisi dünyanın tanınmış hərbi sənaye müəssisələrini, nüfuzlu xarici şirkət və təşkilatları, rəsmi nümayəndə heyətlərini və mütəxəssisləri eyni məkanda toplayaraq işgüzar əlaqələrin qurulması və yeni müqavilələrin imzalanması üçün geniş imkanlar yaradır. Dövlət başçısı əminliklə bildirib ki, bu sərgilər faydalı təcrübə mübadiləsinin aparılmasına, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına əlverişli imkan yaradacaq və Azərbaycanın müdafiə sənayesinin elmi-texnoloji potensialının artırılmasına öz müsbət töhfəsini verəcək.

Sentyabrın 6-da İlham Əliyev Bakı Ekspo Mərkəzində keçirilən sərgilərdə nümayiş etdirilən müasir hərbi texnikalar, silah, PUA-larla tanış oldu. Dünyanın 30-a yaxın ölkəsindən 208 şirkətin iştirak etdiyi sərgilərdə Azərbaycanı 22 şirkət təmsil edirdi.

Azərbaycanın Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilən tədbirin təşkilati işlərinin icrası "Caspian Event Organisers" şirkətinə həvalə edilmişdi. Sərgidəki iştirakçılar arasında Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və ilk dəfə olaraq İordaniyanın müdafiə sektorunun aparıcı şirkətləri var idi. Builki sərgidə 8 ölkə milli stendləri ilə iştirak edirdi.

Sərgilər bir daha Azərbaycanın bu istiqamətdə inkişafını göstərdi. Bəlli oldu ki, Azərbaycan Vətən müharibəsindən sonra hərbi sənayenin inkişafı istiqamətində davamlı addımlar atır. Ümumilikdə hərbi sahədə kadrların hazırlanması, bu sahənin təkmilləşdirilməsi yönündə qonşu ölkələrlə birgə layihələr həyata keçirilir, qoşunların birgə təlimləri baş tutur, yeni hərbi sursatların istehsalı, alınması istiqamətində əməkdaşlıq genişləndirilir.

### Azərbaycanın müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır

Prezident İlham Əliyevin söylədiyi kimi, XXI əsrin müharibəsini aparmış Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi bu gün inkişaf etmiş ölkələrin hərbi mərkəzlərində diqqətlə öyrənilir. Son dərəcə çətin relyef şəraitində ən müasir döyüş silahlarını tətbiq etməklə Azərbaycan Silahlı Qüvvələri düşmənin möhkəmləndirilmiş müdafiə xətlərini yarmış və sürətlə irəliləyərək cəmi 44 gün ərzində onu təslim olmağa məcbur etmişdir.

Bu savaşda pilotsuz uçuş aparatları isə yeni müharibə formatının bünövrəsini qoydu. Ordumuzun həyata keçirdiyi müasir döyüş taktikası dünya hərb praktikasında yeni nəsil savaşı kimi dəyərləndirildi.

Azərbaycanın tarixi qələbəsi göstərdi ki, hərbi sahədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün müasir ordu quruculuğu, ölkənin hərbi qüdrətinin yüksəldilməsi istiqamətində ardıcıl və məqsədyönlü tədbirlərin həyata keçirilməsi son dərəcədə əhəmiyyətlidir.

Prezidentin sərgilərin açılış mərasiminə ünvanladığı məktubunda da qeyd edilir ki, Azərbaycan öz Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin artırılmasına və maddi-texniki bazasının gücləndirilməsinə daim xüsusi önəm verir. Ölkəmiz hərbi-texniki sahədə dünyanın qabaqcıl dövlətləri ilə əməkdaşlığını inkişaf etdirməklə yanaşı, milli müdafiə sənayesi sahəsində də imkanlarını genişləndirir. Hazırda Azərbaycan aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın 50-dən çox ölkəsinin aparıcı şirkətləri ilə sıx əməkdaşlıq edir, ölkəmizin müdafiə sənayesi müəssisələrində istehsal olunan məmulatların həcmi ildən-ilə artır: "Biz qarşıdan gələn dövrdə də müasir silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsalına xüsusi diqqət yetirməklə Azərbaycan Silahlı Qüvvələrini və ölkəmizin müdafiə qabiliyyətini daha da gücləndirəcəyik".

Qalib komandanın bu fikirləri və sərgilərdə dost, tərəfdaş ölkələrin birlikdə müdafiə sənayesindəki yeniliklərini nümayiş etdirmələri həm də məğlub Ermənistana, regionda sülh istəməyən qüvvələrə açıq mesaj idi. Müdafiə sənayesini gücləndirən, daha müasir texnikalar alan Azərbaycan istənilən formalı savaşa hazırdır. Əgər Ermənistan sülh müqaviləsini imzalamaqdan boyun qaçırıb, təxribatlar törətməyə davam edəcəksə, mütləq "dəmir yumruq" işə düşərək problemi həll etmək məcburiyyətində qalacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzurun ilk təhsil zəngi Ağalıda çalınacaq

*Əvvəli 1-ci səh.*

### Qədim məktəblərə yeni həyat verilir

Ərazilərimizi işğal altında saxladığı 30 il müddətində vandal düşmən təhsil müəssisələrini də tamamilə dağıdıb. Statistikaya əsasən, bu torpaqlarımızda işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 müəssisə fəaliyyət göstərib.

Lakin sözügedən təhsil müəssisələri işğaldan sonra vəhşi düşmən tərəfindən darmadağın edilib. Buna görə də hazırda Qarabağ və Şərqi Zəngəzurda bu istiqamətdə quruculuq işləri sürətlə aparılır.

Ötən il mayın 12-də Prezident İlham Əliyev 28 ildir ki, qəriblikdə fəaliyyət göstərən və Qarabağın ən qədim məktəbi olan Şuşa 1 saylı tam orta məktəbin təməlini qoydu.

Dövlət başçısına məlumat verildi ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz Şuşada qoyulub. 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub.

1 saylı orta məktəb yarandığı vaxtdan 1992-ci ilin may ayınadək Şuşada fəaliyyət göstərib. Şəhərin erməni qəsbkarları tərəfindən işğal edilməsindən sonra məktəb Bakının Yasamal rayonundakı 38 nömrəli orta məktəbin binasında, onun maddi-texniki bazasından istifadə etməklə 2015-2016-cı tədris ilinə qədər fəaliyyətini davam etdirib.

Prezident İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq Şuşa şəhər 1 saylı tam orta məktəb 2015-2016-cı tədris ilindən etibarən yeni inşa edilən binada bütün təhsil infrastrukturu ilə şagirdlərin və müəllimlərin istifadəsinə verilib.

Hazırda Şuşada 960 şagird yerlik məktəb üçün yenidən möhtəşəm bir bina inşa edilir.

2021-ci il mayın 28-də - Müstəqillik Günündə isə Prezident İlham Əliyev Qarabağda dağıdılan daha bir qədim təhsil müəssisəsinin, erməni vandalları tərəfindən məhv edilən Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının təməlini qoyub.

Əsgər bəy Eyvazov tərəfindən 1883-cü ildə əsası qoyulan Ağdam şəhər 1 saylı orta məktəb şəhərin müxtəlif yerlərində fəaliyyət göstərib. 1949-cu ildən isə hazırda Prezidentin təməlini qoyduğu ərazidə fəaliyyət göstərib. Məktəbin ikimərtəbəli binası 1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılıb.

Ağdamda yenidən inşa olunacaq bu qədim məktəbin layihəsində məktəb üçün üçmərtəbəli bina və plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunması nəzərdə tutulub. 960 nəfər şagird üçün nəzərdə tutulan məktəbdə 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə tədris üçün hər cür şərait, bütün texniki imkanlar olacaq.

### Azadlığına qovuşan ərazilərimizdə müasir məktəblər tikilir

Ötən il oktyabrın 4-də Prezident İlham Əliyev Azərbaycan təhsil ictimaiyyətinə daha bir ərməğan etdi, Cəbrayılda akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlini qoydu.

960 şagirdin təhsil alacağı yeni məktəb binasında hər cür inventarla təchiz olunmuş sinif otaqları, fənn kabinetləri fəaliyyət göstərəcək. Məktəbin həyətində geniş idman meydançası tikiləcək ki, bu da sağlam nəslin yetişməsi üçün vacib amillərdəndir. Doğma torpaqlarına geri dönən cəbrayıllı şagirdlər ən müasir tələblərə cavab verən təhsil ocağında oxuyacaqlar. 145 yaşlı bu məktəblə yanaşı, Cəbrayıl şəhərində daha 3 məktəbin tikilməsi də nəzərdə tutulur.

Bundan başqa, Füzulidə 960 şagird yerlik tam orta məktəbin tikintisinin, Suqovuşan qəsəbəsində isə 144 şagird yerlik məktəbin əsaslı təmirinin layihə-smeta sənədləri hazırlanıb.

Bu il martın 20-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Suqovuşana səfərləri çərçivəsində qəsəbədəki 144 şagird yerlik tam orta məktəbin binasında oldular və təhsil müəssisəsindəki vəziyyətlə maraqlandılar. Dövlət başçısına məktəbin eskiz layihəsi əsasında məlumat verilərək bildirildi ki, yararsız vəziyyətə düşmüş Suqovuşan qəsəbə tam orta məktəbinin binası Təhsil Nazirliyi tərəfindən təmir olunacaq. Məktəbin ərazisi 1 hektardır. Binanın ümumi sahəsi 820 kvadratmetrə yaxındır. Məktəb 12 sinif otağından, 60 nəfərlik akt zalından və kitabxanadan ibarətdir.

Dördmərtəbəli binanın fasadının ətrafdakı fərdi evlərə uyğunlaşdırılacağı nəzərdə tutulur. Fasadda fərdi evlərdə olduğu kimi, dekorativ təbii daşlardan istifadə ediləcək. Məktəbdə müasir standartlara uyğun idman meydançası qurulacaq, həyətyanı sahə abadlaşdırılacaq.

### Kəlbəcər və Zəngilana da məktəb tikintisi üçün vəsait ayrılıb

Sentyabrın 7-də Prezident İlham Əliyev Kəlbəcər şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300 min manat ayrılması ilə bağlı sərəncam imzalayıb.

Sözügedən tarixdə Prezidentin imzaladığı daha bir sərəncamda nəzərdə tutulub ki, Zəngilan şəhərində 960 şagird yerlik tam orta məktəb binasının layihələndirilməsi və tikintisi məqsədilə 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300 min manat ayrılsın.

### Ağalılılar yeni tədris ilini öz məktəblərində qarşılayacaqlar

İşğaldan azad edilən bölgələrimizdə "ağıllı kənd" pilot layihəsi çərçivəsində müasir təhsil müəssisələrinin tikintisi də nəzərdə tutulub.

Zəngilanın Ağalı kəndində tikilən yeni məktəb artıq istifadəyə hazırdır və kənd orta məktəbində təhsil almaq üçün 61 uşaq qeydiyyatdan keçib. Elm və Təhsil Nazirliyinin məlumatına əsasən, həmçinin 18 uşağın bağçada təhsilinin başlanması planlaşdırılır. İşğaldan azad olunmuş digər ərazilərdə də mərhələli şəkildə məktəbəqədər təhsil müəssisələrinin açılması nəzərdə tutulur.

Göründüyü kimi, işğaldan azad edilən Vətən torpaqlarımızda müasir infrastruktura malik yeni məktəb binalarının təməli qoyulur, sürətli tikintisi aparılır.

Çox tezliklə Prezident İlham Əliyevin Qarabağda, Şərqi Zəngəzurda təməllərini qoyduğu bütün məktəblərdə qaynar təhsil mühitinə start veriləcək və burada oxuyan Azərbaycan övladları elm və bilikləri ilə dünyaya səs salacaqlar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Ağıllı", modern, əzəmətli

## Azərbaycan dövləti Qarabağ və Şərqi Zəngəzura qayıdacaq vətəndaşları üçün ən yüksək həyat standartlarını tətbiq edir

*Əvvəli 1-ci səh.*

Qarabağ və Şərqi Zəngəzurun bərpası istiqamətində fəaliyyət həm də idarəçilik baxımından təkmil formada həyata keçirilir. Bu ilin iyul ayında Prezident İlham Əliyevin fərmanları ilə "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" və "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxslərinin yaradılması bunu təsdiqləyir. Qeyd edək ki, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti bu iqtisadi rayona daxil olan işğaldan azad edilmiş ərazilərə (Şuşa rayonu istisna olmaqla) əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, çoxmənzilli binaların idarə edilməsi, habelə müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti isə Zəngilan rayonuna əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, çoxmənzilli binaların idarə edilməsi, müvafiq ərazidə abadlaşdırma, yaşıllaşdırma və mənzil-kommunal təsərrüfatı sahələrində fəaliyyət göstərən publik hüquqi şəxsdir.

### İlham ƏLİYEV: "Öz gücümüzə arxalanırıq"

Hazırda Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işlərinin bir istiqamətini yaşayış yerlərinin bərpası təşkil edir. Artıq bu sahədə bəzi layihələrin icrası başa çatıb. Buna misal kimi Zəngilan rayonunda Ağalı kəndinin bərpasını göstərmək olar. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük qayıdışın ilk qədəmləridir. Yenidən qurulan kənddə artıq yeni həyat başlayıb. Ağalı kəndində "ağıllı kənd" konsepsiyasının hər üç komponenti - "ağıllı dövlət idarəçiliyi", "ağıllı infrastruktur və xidmətlər", "ağıllı təsərrüfat və biznes mühiti" yaradılıb.

Azad edilmiş digər rayonlarda da doğma yurdlarına qayıdacaq vətəndaşlar üçün yeni yaşayış məhəllələrinin salınmasına başlanılıb. Ötən ildən başlayaraq şəhərlərin baş planları təsdiq edilir, yaşayış binalarının təməli qoyulur. İndiyə kimi Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Şuşa şəhərində birinci məhəllənin, Cəbrayıl və Füzuli şəhərlərində ilk çoxmənzilli yaşayış məhəllələrinin təməli qoyulub. Təsdiq olunan baş planlara əsasən, doğma yurdlarına qayıdacaq vətəndaşlarımızın rahat həyat şəraiti təmin olunacaq.

Bütün bunlar isə Azərbaycan dövlətinin öz maddi imkanları hesabına həyata keçirilir. Bu il mayın 27-də Zəngilan rayonunun Ağalı kəndində "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində Prezident İlham Əliyev bununla bağlı deyib: "Bu, böyük bir prosesdir və onu da bildirməliyəm ki, biz bu işi dövlət büdcəsi hesabına edirik. Heç bir yerdən heç bir yardım almamışıq, heç bir kredit almamışıq, heç bir ianə, yaxud da ki, bir hədiyyə almamışıq, öz gücümüzə arxalanırıq, necə ki, həmişə belə yaşamışıq, gücümüz qədər nailiyyətlər də əldə etmişik".

Doğma torpaqlarından köçkün düşmüş soydaşlarımızın geri qayıtması üçün həyata keçirilən layihələr "ağıllı kənd", "ağıllı şəhər" konsepsiyalarına əsaslanır. Bu həm də ondan xəbər verir ki, Azərbaycan dövləti öz vətəndaşları üçün ən yüksək standartları tətbiq edir. O cümlədən Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji" zonası yaradılır ki, bu da müasir qlobal çağırışların Azərbaycanda uğurla reallaşdığını göstərir.

Xatırladaq ki, 2021-ci ildə Qarabağ və Şərqi Zəngəzurun bərpası məqsədilə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılmışdı. 2022-ci ilin dövlət büdcəsində də bu həcmdə vəsait nəzərdə tutulmuşdu. Lakin bu ilin iyun ayında dövlət büdcəsinin gəlir və xərcləri artırılıb. Artan büdcə gəlirlərinin 470 milyon manatı işğaldan azad olunmuş ərazilərin bərpasına yönəldilib. Beləliklə, son iki ildə işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılmasına ümumilikdə 5 milyard manata yaxın vəsait ayrılıb.

Sentyabrın 7-də Prezident İlham Əliyevin sərəncamları ilə Ağdam, Füzuli, Xocavənd və Tərtər rayonlarının işğaldan azad edilmiş ərazilərində yaşayış məntəqələrinin tikintisi, təmiri və bərpası işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 3 milyon manat, bu işlərin Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında həyata keçirilməsi üçün isə "Şərqi Zəngəzur İqtisadi Rayonunda 1 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə ilkin olaraq 2 milyon manat vəsait ayrılıb.

Bu vəsaitlərin ayrılması bir daha göstərir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası işləri sürətlə gedir və dövlət tərəfindən lazım olan bütün tədbirlər həyata keçirilir. Azad olunmuş ən ucqar ərazilər belə indi tikinti meydanını xatırladır. Bütövlükdə işğaldan azad olunmuş bütün ərazilərimizdə doğma yurdlarına qayıdacaq insanlarımız üçün ən müasir həyat standartları yaradılır.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ



# Azərbaycan sülh və tərəfdaşlıq ənənələrinə sadiqdir

## Enerji təhlükəsizliyinin kəskin problemə çevrildiyi indiki məqamda bu, xüsusi əhəmiyyət kəsb edir

**Planetar miqyasda artan qarşıdurmalar, dövlətlərarası münasibətlərin gərginləşərək müharibələrə keçməsi, enerji resursları uğrunda qaydasız çəkişmələr və supergüclərin həvəslə nüfuz savaşına qalxması planetin çox gərgin münasibətlər müstəvisinə adlamasından xəbər verir. Yeni dəyərlər formalaşmamış köhnə münasibətlər arxivə atılır və unudulur. Ərzaq qıtlığı, kütləvi aclıq və enerji resurslarının nəqlindəki problemlər elə sərtləşir ki, böyük güclər bu məsələlərin həllində gözlənilmədən mehriban dostdan barışmaz düşmənə çevrilirlər. Məsələn, Ukrayna ilə Rusiya kimi.**

Belə bir məqamda Qafqazda 30 illik üzücü müharibəyə qələbə ilə yekun vuran, bu ərazilərdə bütün qüvvələri sülhə və əməkdaşlığa yönəldə bilən Azərbaycan Prezidentinin "Enerji təhlükəsizliyində Azərbaycanın rolu" mövzusundakı çıxışı hamı üçün maraqlı idi. Söhbət dövlət başçısının bu il sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzi tərəfindən keçirilən 48-ci beynəlxalq forumun plenar iclasındakı çıxışından və mətbuat təmsilçilərinin suallarına cavablarından gedir.

Faktiki olaraq "The European House-Ambrosetti" beyin mərkəzi müasir dünyada baş verən hadisələrin necə və hansı istiqamətlərdə cərəyan etdiyini dərk etmək, müharibə və əməkdaşlıq yollarını axtarmaq üçün İlham Əliyevi öz tribunasına dəvət etmişdi. Məsələ burasındadır ki, 30 illik Vətən müharibəsini qələbə ilə başa vuran, bütün qonşuları ilə stabil münasibətlər qura bilən Azərbaycan Prezidentinin təcrübəsi həqiqətən də ağır qarşıdurmaların cəngində olan Avrasiya materiki üçün müsbət təcrübədir.

Prezident İlham Əliyev çıxışında enerji təhlükəsizliyi məsələsində Azərbaycanın strategiyasının mərhələlərə bölündüyünü xatırlatdı. Birinci mərhələdə 1994-cü ildə müstəqilliyimizin bərpasından üç il sonra dünyanın aparıcı enerji şirkətlərini Xəzər dənizində çalışmağa dəvət edən ilk ölkə olduq. Biz həm də Avropa bazarına, əsasən də İtaliyaya neft ixrac edən ölkəyə çevrildik: "Biz iki strateji neft boru kəmərinin inşası ilə Avrasiyanın enerji xəritəsinin dəyişdirilməsi prosesində təşəbbüsü üzərimizə götürdük... Beləliklə, biz Qara dəniz bazarı və dünya bazarlarına təchizatı şaxələndirməyə nail olduq".

Azərbaycan ərazilərinin işğal edilməsinə, Ermənistan tərəfindən, bir sıra Avropa dövlətlərinin bilavasitə və dolayısı dəstəyi ilə 30 il işğal altında saxlanılmasına baxmayaraq, nəhəng qaz yataqlarının istismarına - enerji strategiyasının ikinci mərhələsinə start verə bildi, son 10 il ərzində qonşu ölkələrin bazarında etibarlı təchizatçıya çevrildi.

Maraqlısı odur ki, uzun illər ərzində erməni aqressiyası səngimədən kulminasiya nöqtəsinə doğru inkişaf etsə də, "Cənub qaz dəhlizi" - üç boru kəmərindən ibarət inteqrasiya edilmiş boru kəmərləri sistemi yaradıldı. Cənubi Qafqaz Boru Kəməri (CQBK) Trans-Anadolu Qaz Boru Kəmərinə (TANAP) birləşdirildi və TANAP da qazı İtaliyaya çatdıran Trans-Adriatik Qaz Boru Kəmərinə (TAP) qovuşdu. Bir hissəsi hündür dağlardan, bir hissəsi dənizin dibindən keçən 3500 kilometr uzunluğunda bu mürəkkəb texniki infrastrukturun yekun hissəsi olan TAP 2020-ci ilin son günü - dekabrın 31-də istifadəyə verildi.

Azərbaycan enerji kəmərləri ilə Avropaya daha sıx bağlandıqca işğalçı Ermənistanın ambisiyaları da aqressivləşirdi. Azərbaycanın sülh səylərinə məhəl qoymayan Ermənistan məhz 2020-ci ildə bütün Azərbaycanın daha böyük ərazisini ələ keçirmək niyyəti ilə qanlı müharibəyə başladı. Prezident öz çıxışında bu incə məqamlara toxunmasa da, bir sıra Avropa dövlətlərinin Ermənistanı açıq müdafiə etməsi, əcnəbi jurnalistlərin Bakıya "hücum"u yəqin ki, hamının yadındadır. Çoxuna elə gəlirdi ki, Azərbaycan bu təzyiqlərə davam gətirməyəcək, geri çəkiləcək. Lakin Azərbaycan inadından dönmədi, Avropanın enerji təhlükəsizliyindəki vacib rolunu heç kimə güzəştə getmədən sonadək oynadı.

Prezident İlham Əliyev çıxışında qeyd etdi ki, bu il biz İtaliya bazarına nəql etdiyimiz qazın həcmini artırmağı və 10 milyard kubmetrə çatdırmağı planlaşdırırıq: "Ümumi ixracımız 22 milyard kubmetrdən artıq olacaq və burada artım üçün çox böyük potensial var".

Bu ilin iyul ayında Bakıda Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen və Prezident İlham Əliyev enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunu imzaladılar. Bu hadisədən iki il əvvəl işğalçı Ermənistan məğlubiyyətinin acı tamını daddı. Azərbaycan işğalçı Ermənistanı məğlub etməklə yanaşı, uzun illər ərzində Avropanın enerji resursları ilə təmin edilməsində əvəzsiz rol oynamaqla sülhə və əmin-amanlğa sədaqətini qoruyan bir dövlət olduğunu nümayiş etdirdi. İlham Əliyev çıxışında bu amili belə qiymətləndirdi: "Mən bunu gələcək fəaliyyətimizin yol xəritəsi adlandırdım. Biz Avropaya təbii qaz ixracını iki dəfə artırmağı planlaşdırırıq və əminəm ki, buna nail olacağıq. Bunun üçün isə vacib addımlar atılmalıdır - siyasi qərarlar, texniki tədbirlər və əlbəttə ki, sərmayə. Çünki "Cənub qaz dəhlizi"nin müxtəlif seqmentlərinin imkanları fərqlidir. TANAP-ın ötürmə qabiliyyəti 16 milyard kubmetrdir. Biz onu 32 milyard kubmetrə çatdırmağı planlaşdırırıq. TAP-ın ötürmə qabiliyyəti 10 milyard kubmetrdir, hazırda o, tam gücü ilə işləyir və biz onun imkanlarını ən azı 20 milyard kubmetrə çatdırmalıyıq. Bu, əlbəttə ki, əlavə maliyyə vəsaiti tələb edir. Biz bir ölkə və investor olaraq buna hazırıq. Lakin burada komandamızın digər üzvlərinin də iştirakı zəruridir".

Azərbaycan regionda münaqişələrin dərinləşməsinə yox, əməkdaşlığın və münasibətlərin güclənməsinə xidmət edən dövlət olduğunu ortaya qoyur, yeni perspektivlərə köklənir. Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqa start verilir. Bura isə təbii qazdan savayı enerji bazarının digər seqmentləri də daxil olacaq. Prezident İlham Əliyev belə deyir: "Bu gün biz elektrik enerjisini Avropaya necə nəql edəcəyimizdən danışırıq. Gürcüstan, Türkiyə, Bolqarıstandan keçməklə Avropaya çıxacaq artıq mövcud olan xətt vasitəsilə, yoxsa yeni xətlə? Yoxsa enerji təchizatı üzrə geniş potensialı olan Zəngəzur dəhlizi ilə? Bunlar bizim enerji planlarımızın üç mərhələsidir".

Azərbaycan dünyanın gələcəyi ilə bağlı narahat və ehtiyatlıdır. Ukraynada müharibə nə vaxt və necə bitəcək, regional güclərin balansı necə dəyişəcək, Ermənistanın sülhə təhrik edilməsi üçün daha hansı addımlar atılacaq, bunlar günün suallarıdır. Beynəlxalq hüquq normalarının tamamilə pozulması, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin 27 il ərzində yerinə yetirilməməsi, indi isə bir çox digər bölgələrdə beynəlxalq hüququn pozulması tamamilə yeni situasiyalar yaradır. Azərbaycan Prezidenti narahatlığını gizlətmir: "Beynəlxalq institutlar, Birləşmiş Millətlər Təşkilatı necə olacaq? O, yenidən qurulacaq, ya başqa bir təşkilat ortaya çıxacaq? Bunların hamısı dünyada yeni fikirləri təşviq etmə gücünə malik olanların məsuliyyətindədir".

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

## Yanvar-avqust aylarında pensiya, müavinət, təqaüd, ünvanlı yardımlar üzrə əhaliyə 4 milyard 362 milyon manat ödənilib

**Sosial təminat növləri üzrə ödənişlərdə artım dinamikası bu ilin 8 ayında da davam edib.**




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən cari ilin yanvar-avqust aylarında pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə əhaliyə 4 mlrd. 362 mln. manat vəsait ödənilib.

Bu da ötən ilin eyni dövrünə nisbətən 9,5 faiz və ya 379 mln. manat çoxdur.

## Alüminium sənayesinin perspektivləri müzakirə edilib

**"Azərbaycan Sənaye Korporasiyası" ASC-nin Müşahidə Şurasının sədri Natiq Əmirovun sədrliyi ilə korporasiyanın videokonfrans formatında növbəti iclası keçirilib.**

İclasda baş direktor Kamran Nəbizadənin və digər vəzifəli şəxslərin məruzələri dinlənilib, şirkətin başa çatan 2021-ci ilin yekunları üzrə kənar audit hesabatı təsdiqlənib, alüminium sənayesinin inkişaf perspektivləri, həmçinin Daşkəsən rayonu ərazisində yerləşən "Zəylik Alunit Mədəni"ndə alunit filizi ehtiyatlarının geoloji qiymətləndirilməsi və digər cari məsələlər müzakirə olunaraq müvafiq qərarlar qəbul edilib.

## Türkiyənin "CTech" şirkətinin nümayəndələri ilə görüş keçirilib



**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Türkiyənin "CTech" şirkətinin İdarə Heyətinin üzvü və baş meneceri Cüneyd Fırat ilə görüşüb.**

KOBİA-dan bildirilib ki, Azərbaycan Beynəlxalq Müdafiə - "ADEX" və Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə - "Securex Caspian" sərgiləri çərçivəsində keçirilən görüşdə investisiya imkanları, xarici iş adamlarına Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən göstərilən dəstək və xidmətlərə dair fikir mübadiləsi aparılıb.

## Dövlət Sosial Müdafiə Fondu ilə Özbəkistanın Büdcədənkənar Pensiya Fondu arasında təcrübə mübadiləsi aparılır




**Özbəkistanda səfərdə olan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İdarə Heyətinin sədri Himalay Məmişov bu ölkənin maliyyə nazirinin müavini Cəmşid Abruyevlə görüşüb.**

Görüşdə DSMF ilə Özbəkistan Respublikasının Maliyyə Nazirliyi yanında Büdcədənkənar Pensiya Fondu arasında perspektiv əməkdaşlıq və ikitərəfli əlaqələrin genişləndirilməsi məsələləri müzakirə edilib.

DSMF sədri Büdcədənkənar Pensiya Fondunun icraçı direktoru Əbdüləziz Haydarovla da görüşüb.

Görüşdə sosial sığorta və sosial təminat sahəsində son illərdə ölkəmizdə aparılan islahatlar barədə məlumat verilib. Bu sahədə innovativ yeniliklər, əhaliyə elektron infrastruktur üzərindən göstərilən proaktiv xidmətlər, sığorta-pensiya sistemi və əhalinin sosial təminatı sahəsində prioritet hədəflər diqqətə çatdırılıb.

Ə.Haydarov əhalinin sosial sığortası və sosial ödənişlərlə təmin edilməsi sahəsində Azərbaycanın qabaqcıl təcrübəsinin Özbəkistanda tətbiq edilməsində maraqlı olduqlarını bildirib.

Özbəkistanın pensiya və sosial sığorta sistemi barədə məlumat verilib. Yaxın gələcəkdə iki qurum arasında əməkdaşlığın genişləndirilməsinə dair niyyət protokolunun imzalanması təklif edilib.

Səfər çərçivəsində fondun nümayəndə heyəti Özbəkistanın Daşkənd şəhərindəki Dövlət Xidmətləri Mərkəzində sosial sahədə əhaliyə göstərilən xidmətlərlə tanış olublar.

## Müzakirə mövzusu "yaşıl enerji" olub

**Energetika naziri Pərviz Şahbazov Yaponiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vadanın iştirakı ilə "TEPSCO" şirkətinin icraçı direktoru Hideo Kojimanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən bildirilib ki, görüşdə Yaponiya şirkətlərinin ölkəmizdə həyata keçirilən enerji layihələrində uğurlu iştirakı qeyd edilib, səmərəli işbirliyinin "yaşıl enerji" istiqamətində davam etdiyi diqqətə çatdırılıb.



Azərbaycanda bərpaolunan enerji sektorunun inkişafı, ekoloji təmiz texnologiyaların tətbiqinin genişləndirilməsi, günəş və külək enerjisi üzrə reallaşdırılacaq böyük güclərin ümumi elektroenergetika sisteminə inteqrasiyası və "yaşıl enerji" ixracına dair fikir mübadiləsi aparılıb. Enerji sisteminin təhlükəsizliyinin təmini kontekstində bərpaolunan enerji mənbələrinin elektrik şəbəkəsinə təsirlərinin öyrənilməsi və qiymətləndirilməsi sahəsində Yaponiya təcrübəsindən bəhs edilib və bu təcrübənin Azərbaycanda tətbiqi imkanları müzakirə olunub.

# "Azəri Mərkəzi Şərqi" AÇG-nin doqquzuncu platforması olacaq

## Tikilməkdə olan bu qurğu vasitəsilə hasilatın gələn il başlayacağı gözlənilir

**"Azəri Mərkəzi Şərqi" (ACE) platformasının inşasında daha bir mühüm nailiyyət əldə olunub. Platformanın Bibiheybətdəki tikinti sahəsində inşa olunan üst modullarının qazma meydançası istismar sınaqlarına təhvil verilib.**

ACE platforması eyniadlı layihə çərçivəsində tikilir. Layihə isə 2017-ci il sentyabrın 14-də imzalanmış "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş sazişə əsasən həyata keçirilir.

Platformanın tikintisinin bir neçə vacib mərhələsi koronavirus pandemiyasının tüğyan etdiyi dövrə düşsə də, karantin qaydalarına riayət olunmaqla işlər dayandırılmadı. İndi də tikinti qrafikə uyğun davam edir. Ümumiyyətlə, layihə üzrə işlər bir neçə istiqamətdə aparılır. AÇG-nin operatoru olan bp şirkətinin platformanın üst modullarının qazma meydançasının istismar sınaqlarına təhvil verilməsi barədə bu günlərdə yaydığı xəbərdə həmçinin bildirilir ki, hazırda ACE layihəsinin icrası üzrə işlər ən yüksək həddə çatıb. Ümumilikdə onların 75 faizdən çoxu tamamlanıb. Bu işlərə 5000 nəfər insan cəlb olunub.



Şirkətin cari ilin birinci yarısına aid hesabatında isə ACE layihəsində gedən işlər barədə daha ətraflı məlumat verilir. Belə ki, ilin əvvəlindən Bibiheybətdəki tikinti sahəsində ACE platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri davam edib. Qazma modullarının üst tikililər blokunun üzərinə qaldırılması və yerləşdirilməsi təhlükəsiz və səmərəli şəkildə yerinə yetirilib. Çəkisi 2350 ton olan modullu qazmaya dəstək modulu və çəkisi 2400 ton olan qazma avadanlığı dəsti əvvəlcə özü hərəkət edən qoşqular vasitəsilə əsas qaldırma yerinə aparılıb, sonra altına əlavə polad kasetlər yerləşdirməklə təxminən 27 metr hündürlüyə qaldırılaraq göyərtənin üzərinə sürüşdürülüb. Bu, bp-nin Xəzərdə ilk dəfə icra etdiyi və dəqiqliklə planlaşdırılmış mürəkkəb bir əməliyyat idi.

Layihə çərçivəsində daha bir uğurlu əməliyyat üst tikililərin şimal və cənub kranlarının qazvurma kompressorunun buraxıcı qurğusu ilə birlikdə quraşdırılması olub.

Üst modulları borularının yığılması və hidrosınağı qrafikə uyğun irəliləyib. Üst tikililərin və qazma qurğusunun mexaniki tamamlanması ilə bağlı təhvil işləri plan üzrə davam edib, əsas elektrik generatorunun, kimyəvi injeksiya və çirkab suların emalı qurğularının istismar sınaqlarına başlanıb. Yaşayış modullarının mexaniki tamamlanması ilə bağlı təhvil işləri plana uyğun irəliləyib.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda isə dayaq blokunun tikintisi tamamlanıb və barja yükləmə ilə bağlı hazırlıq işləri aparılıb.

Layihə üzrə dənizdə də müvafiq işlər həyata keçirilir. Belə ki, "Xankəndi" sualti tikinti gəmisi dalğıc işlərinə dəstək verir. ACE sualtı qaz boru xətlərinin yataqdaxili sualtı boru kəmərinə bağlanması "Şərqi Azəri" platformasının iyun ayında həyata keçirilmiş profilaktik işlər proqramı çərçivəsində yerinə yetirilib. Qaz boru xəttinin bağlanması üçün "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarında ACE layihəsi ilə bağlı bütün işlər də tamamlanıb.

Yeri gəlmişkən qeyd edək ki, "Azəri Mərkəzi Şərqi" platforması Xəzərdə "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasındakı ərazidə yerləşəcək. Yeni platforma adını elə qonşularından alıb.

ACE əməliyyatlarının qurudan idarə olunması üçün Səngəçal terminalında aparılan modifikasiya tikinti işləri də davam edir.

ACE-dən ilk hasilatın 2023-cü ildə əldə edilməsi gözlənilir. Həmin vaxta qədər platformanın bütün hissələri hazır olacaq, qurğu bütövlükdə dənizdə quraşdırılacaq və istismar sınaqlarından keçiriləcək. Bu, AÇG-nin doqquzuncu platforması olacaq və oradan alınan hasilata sanballı dəstək verəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*




# 2022-ci il "Şuşa ili"dir

## QHT nümayəndələri, bloqçular və ictimai fəallar Şuşadadır

**Sentyabrın 8-də Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının geniş tərkibdə nümayəndə heyətlərinin Şuşa şəhərinə növbəti səfərləri başlayıb.**




AZƏRTAC xəbər verir ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən təşkil olunan səfərlər 3 gün davam edəcək. Hər gün 150-dən çox QHT nümayəndəsinin, habelə bloqçu və ictimai fəalın iştirak edəcəyi səfərlərə ümumilikdə 500 nəfər qoşulacaq.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Vüsal Quliyev bildirib ki, QHT-lərin işğaldan azad olunmuş ərazilərə səfərləri mütəmadi təşkil edilir. Onlar səfər etdikləri ərazilərdə işğalın ağır nəticələri, Azərbaycan xalqının maddi-mədəni və tarixi irsinə qarşı törədilmiş soyqırımı fəaliyyəti nəticəsində dağıdılmış yaşayış məskənləri və mədəni-tarixi nümunələrlə tanış olurlar. Eyni zamanda səfər iştirakçıları Şuşada və yol boyunca işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və genişmiqyaslı tikinti işlərinin həcmini və sürətini izləyə bilirlər.

Prezident İlham Əliyevin Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci ili Azərbaycan Respublikasında "Şuşa ili" elan etməsini xüsusi vurğulayan Vüsal Quliyev ayrı-ayrı qeyri-hökumət təşkilatları tərəfindən Şuşada həyata keçirilən tədbirlərin əhəmiyyətini qeyd edib. Bildirib ki, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin "Şuşa ili"nə həsr olunmuş xüsusi qrant müsabiqəsi keçirməsi, QHT-lərin həm ölkə daxilində, həm də xarici ölkələrdə müxtəlif təşəbbüslər reallaşdırması bu işə böyük töhfədir.

V.Quliyev qeyd edib ki, bu gün başlayan Şuşa səfəri QHT-lərin Qarabağ bölgəsinə sayca 12-ci səfəridir. Bu günədək yalnız Şuşaya QHT-lərin 800-dən artıq nümayəndəsinin, ümumilikdə Qarabağa 1500-dən çox QHT təmsilçisinin səfəri təşkil olunub.

Qeyd edək ki, səfər çərçivəsində QHT təmsilçilərinə Şuşanın azad olunması zamanı Azərbaycan əsgərlərinin göstərdiyi şücaətdən, eyni zamanda şəhərin tarixi, strateji, mədəni və mənəvi əhəmiyyətindən söz açılıb. Həmçinin erməni vandalizminin Şuşada məscidlərə, tarixi abidələrə və digər obyektlərə vurduğu zərər haqqında məlumat verilib.

Səfər iştirakçıları Cıdır düzündə, Vaqifin məqbərəsində, Bülbülün ev-muzeyində, Şuşanın mərkəzi meydanında Azərbaycan mədəniyyətinin tanınmış simaları Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərini, Şuşa qalasını və digər tarixi yerləri ziyarət ediblər.

QHT nümayəndələri səfərin sonunda bir daha Müzəffər Ali Baş Komandana Şuşaya təşkil edilən səfərə, habelə şəhərdə aparılan bərpa və quruculuq işlərinə görə minnətdarlıqlarını bildiriblər.

## 40-a yaxın beynəlxalq səyahətçi Şuşaya səfər edib

**Dünyanın 20-dən çox ölkəsindən 40-a yaxın beynəlxalq səyahətçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura səfəri başlayıb. Heyətin rəhbəri dünyanın ən nəhəng 4 səyyah klubundan biri olan ABŞ-ın MTP (Most Travelled People) klubunun təsisçisi Charles Veleydir.**




AZƏRTAC xəbər verir ki, beynəlxalq səyahətçilər ilk olaraq Şuşa şəhərinə gəliblər. Onlar səfər zamanı Şuşa şəhəri, buranın tarixi məkanları və əsrarəngiz təbiəti ilə tanış olublar.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşı qonaqlara Şuşa şəhəri, işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verib. Bildirib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhərinin mərkəzi meydanına gələn qonaqlara güllələnmiş heykəllər barədə məlumat verilib. Qeyd olunub ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq əritmək istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Səyyahlar sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları ilə tanış olublar.

Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub, alınmazlıq simvolu olub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Xarici səyahətçilər sonda Cıdır düzündə olub, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər. Qonaqlar daha sonra Ağdama yola düşüblər.

Qeyd edək ki, beynəlxalq səyahətçilər 3 gün ərzində Şuşa-Ağdam, Xocavənd-Füzuli, Zəngilan-Cəbrayıl marşrutları üzrə hərəkət edəcəklər. Səfər işğaldan azad edilmiş ərazilərin "black tourism" çərçivəsində tanıdılması baxımından müstəsna əhəmiyyət daşıyır.

Ötən il dünyanın biznes və turizm elitasını özündə birləşdirən əsas beynəlxalq səyahətçilər şəbəkələrinin - ETIC (Extremal Travellers International Congress), MTP (Most Travelled People), TCC (Travelers' Century Club), Nomadmania klublarının təsisçiləri, prezidentləri və tanınmış üzvləri səviyyəsində qrupların Qarabağ və Şərqi Zəngəzura 3 dəfə səfərləri təşkil olunub. Bu səfərlərdə 25-ə yaxın ölkədən 100-dən çox beynəlxalq səyahətçi iştirak edib.

### *Finlandiyalı səyyah:* "Çox təəssüflər olsun ki, işğaldan azad olunmuş ərazilər kütləvi şəkildə minalanıb"

**Şuşanın əsrarəngiz təbiətinə heyran qaldıq. Burada aparılan sürətli bərpa işləri, yeni yolların, binaların və yaşayış məntəqələrinin tikintisi bizi çox sevindirir.**



AZƏRTAC xəbər verir ki, bu sözləri işğaldan azad edilmiş Şuşa şəhərinə səfər edən beynəlxalq səyahətçilər qrupuna daxil olan finlandiyalı Karimat Divalteri deyib.

"Çox təəssüflər olsun ki, işğaldan azad olunmuş ərazilər kütləvi şəkildə minalanıb. Bu yerlərin minalardan təmizlənməsi üçün həmin ərazilərin dəqiq xəritəsi verilməlidir ki, minalardan təmizlənmə işi sürətlənsin və buraya gələn vətəndaşlar üçün də heç bir təhlükə olmasın", - deyə o əlavə edib.

### *Avstraliyalı səyyah:* "İşğaldan azad olunmuş ərazilərdə aparılan sürətli bərpa-quruculuq işləri bizi heyran etdi"

**Azərbaycanda, ümumiyyətlə, Şuşa şəhərində ilk dəfədir oluram. Şuşa şəhərinə gələrkən yolboyu gördüklərimiz - işğaldan azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan sürətli bərpa-quruculuq işləri bizi heyran etdi.**




AZƏRTAC xəbər verir ki, bu sözləri Ermənistanın işğalından azad edilmiş Şuşa şəhərinə səfər edən beynəlxalq səyahətçilər qrupuna daxil olan avstraliyalı Coko Tandicono deyib.

O, işğaldan azad edilmiş ərazilərdə törədilmiş kütləvi dağıntıların şahidi olduğunu deyib. "Şuşa qalası bərpa olunur, ümumiyyətlə, Azərbaycan hökuməti tərəfindən aparılan sürətli bərpa işləri nəticəsində şəhər öz simasını yavaş-yavaş bərpa edir", - deyə səyyah bildirib.

### *"Most Travelled People" klubunun təsisçisi:* "Azərbaycanlıların azad olunmuş torpaqlarda gördüyü quruculuq işləri mükəmməldir"

Ötən il Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə üç dəfə səfər etmişəm. Hər gəlişimdə burada inkişaf və yeniliklərin şahidi oluram.

Bu sözləri AZƏRTAC-a açıqlamasında beynəlxalq səyyahlar qrupu ilə Şuşaya səfər edən, dünyanın ən nəhəng 4 səyyah klubundan biri olan ABŞ-ın MTP (Most Travelled People) klubunun təsisçisi Charles Veley deyib.

"30 ildir davam edən işğal zamanı bu ərazilər viran qalmışdı. İndi isə biz Azərbaycan xalqının bu yerlərdə yeni binalar tikməsinin, infrastruktur yaratmasının şahidiyik. Hər səfərimdə yeni tikinti görürəm. Budəfəki səfərimdə Şuşada hotelin inşasının tamamlandığını gördüm.



Çox təqdirəlayiq haldır. Zəfər yolu ilə Şuşaya gəlirdik, indi isə başqa bir yol da inşa edilir. Tunellər, körpülər... Azərbaycanlıların azad olunmuş torpaqlarda gördüyü quruculuq işləri mükəmməldir", - deyə o əlavə edib.



Prezident İlham Əliyev sentyabrın 7-də görkəmli sənətkar Mirzə Əsəd oğlu Sadığın (Sadıqcanın) Şuşa şəhərində yerləşən evinin layihələndirilməsi və bərpası ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

Qədim və əsrarəngiz Şuşanın yağı düşmənin vurduğu yaraları sağalır. Şuşa dirçəlir. Otuz ilə yaxın davam edən işğal müddətində erməni vandallarının dağıtdıqları evlər yenidən qurulur. Yayın qızmar günlərində belə isinməyən, buza dönmüş yerlərinə hərarət gəlir. Düşmənin zülmətə çevirdiyi şəhərin küçələri də, evləri də sabahı kimi aydınlanır. Tezliklə Şuşada isinən, işıqları yandırılan evlərdən biri də onun - musiqiçi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar Mirzə Əsəd oğlu Sadığın (Sadıqcanın) olacaq...

## Tarı təkmilləşdirən böyük sənətkar

### Böyük arzularla qurulan ocaq

Bu evi Sadıq Sadıqcan olandan sonra, şöhrəti dillərdə dolaşan vaxtlarında özü tikdirib. Şuşanın ən yaxşı küçələrindən birində inşa olunan üçmərtəbəli evinin tikinti işlərində sənətkar özü də bir neçə gün iştirak edib.

1846-cı ildə Şuşa şəhərində dünyaya gələn Sadığın uşaqlığı firavanlıq içərisində keçməyib. Atası Əsəd gözətçi işləyib. Birmərtəbəli ata evi iki otaqdan ibarət olub. O kasıbyana evlərində Sadıq musiqi sənətinə bağlılıq, sevgi görə-görə böyüyüb. Şuşanın mədəni mühiti də onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərib. Hələ uşaq yaşlarından incəsənətə, musiqiyə marağı sonsuz idi. Atası onu Xarrat Qulunun məktəbinə gözəl, ürəyəyatımlı səsinə görə aparıb. Xarrat Qulu Sadığın istedadlı olduğunu görüb məktəbinə qəbul edib. Şuşanın məşhur muğam ifaçıları Hacı Hüsü, Cabbar Qaryağdıoğlu, Bülbülcan, Məşədi İsi, Dəli İsmayıl, Şahnaz Abbas, Keştazlı Həşim, Keçəçi oğlu Məhəmmədin oxuduğu bu təhsil ocağı Sadığın da musiqiçi kimi yetişməsində mühüm rol oynayıb.

Artıq seçdiyi sənət, gedəcəyi yol bəlliydi. Elə Sadığın məlahətli, özünəməxsus səsini dinləyənlər də onun adlı-sanlı xanəndə olacağına inanırdılar. Ancaq on səkkiz yaşlı Sadığın səsi qəflətən batıb. Xanəndəlik arzusu gözündə qalan gənc sarsılsa da, musiqi sənətindən uzaqlaşmayıb. Tütək, ney, kamança alətlərində gözəl musiqilər ifa etməyi öyrənsə də, onun sənətdə ömürlük yoldaşı, ruhunun həmsöhbəti tar olub.

İstedadı olduğu qədər də öyrənməyə həvəsli Sadıq tar müəllimi, XIX əsrdə yaşamış məşhur tarzən Mirzə Muxtar Məmmədovdan dərs alıb. Qısa vaxtda tar ifaçılığı sənətinin incəliklərinə yiyələnib. O, Mirzə Muxtarın ansamblının kamança ifaçısı olub. Müəllimi bir gün xəstələnib. Sadıq tarda Mirzə Muxtarı əvəz etməli olub. Və o gün tarı elə səsləndirib ki, dinləyənlər heyran qalıblar. Sadığın tarzənlik məharətindən bütün Şuşa xəbərdar olub. Bu uğuru Sadığı ömürlük tar sənətinə bağlayıb. Mirzə Muxtar şagirdinin qabiliyyətinə heyranlığını sevinc və qibtə ilə dilə gətirib: "Kaş mənim var-dövlətim Sadığın, onun barmaqları isə mənim olaydı", - deyib.

### Sadıq necə Sadıqcan olub

Sadıqcan kimi tanınmasına, məşhurlaşmasına gəlincə, Xalq rəssamı Lətif Kərimov "Musiqi lüğətinin izahı" adlı əsərində qeyd edib ki, XVIII əsrdən etibarən Yaxın Şərq ölkələrində, eləcə də Azərbaycanda xalq tərəfindən çox sevilən, yüksək dəyərləndirilən xanəndə və sazəndələrə "can" kimi yüksək ad, yaxud təxəllüs verilirdi. Bu səbəbdən Mirzə Sadıq Sadıqcan, Əbdülbağı Zülalov Bülbülcan kimi tanındılar.

Şuşada qurulan musiqi məclislərinin Sadıqcanın məşhurlaşmasında böyük rolu olub. Şöhrəti Şuşanı, Qarabağı aşıb. Azərbaycanın başqa bölgələrində, hətta qonşu ölkələrdə də tanınıb. 1872-ci ilin martında İranın Rusiyadakı səfiri Novruz bayramı münasibətilə onu Sankt-Peterburqa dəvət edib. Sadıqcan bayram tədbirində məşhur xanəndə Səttarla birlikdə çıxış edib.

O, Hacı Hüsü və Ata Bağdagüloğlu ilə muğam üçlüyü yaradıb. Sonra özü xanəndə Məşədi İsinin üçlüyünə daxil olub. Bu üçlük 1890-cı illərdə Aşqabad, Səmərqənd, Daşkənd və başqa şəhərlərə gedib, xalq şənliklərində çıxış edib.

1880-ci ildə üçlük Təbrizə Nəsrəddin şah Qacarın oğlunun toy mərasiminə dəvət olunub. Elə məclis aparıblar ki, Nəsrəddin şah Hacı Hüsünü ən yaxşı xanəndə, Sadıqcanı ən yaxşı tarzən kimi "Şiri-Xurşid" ordeni ilə mükafatlandırıb.

Sadıqcanın rəhbərliyi ilə 1890-cı illərdə Şuşada ansambl yaranıb. Dövrün tanınmış musiqiçiləri və xanəndələri həmin ansamblda çıxış ediblər. Ansambl Şuşa, Bakı, Gəncə, Aşqabad, Tehran, İstanbul, Dərbənd və Vladiqafqazın konsert zallarında, Xurşidbanu Natəvan, Mahmud ağa, Məşədi Məlik bəy Mansurovun musiqi məclislərində, Tiflisin "Müctəhid" və İrəvanın "Xurra" bağlarında konsertlər verib.

Sadıqcan bacarıqlı pedaqoq kimi də Azərbaycan musiqi sənətinə böyük xidmət göstərib. Öz təcrübəsini, bildiklərini həvəslə şagirdlərinə - Qurban Pirimov, Məşədi Cəmil Əmirov, Məşədi Zeynal Haqverdiyev, Şirin Axundov, Mərdi Canıbəyov, Həmid Malıbəyli və başqalarına öyrədib.

### Ustadın talan olunan evi yenidən qurulur

Sadıqcan tarı təkmilləşdirib. Bu musiqi alətinə cingənə və kök simləri əlavə edib, simlərin sayını 5-dən 11-ə çatdırıb. Tarın həm də pərdətutma sistemini tamamilə dəyişdirən tarzən onların sayını 28-dən 22-yə endirib. Musiqiçilər onun yenilik gətirdiyi tarı "möcüzə", Sadıqcanı isə "tarın atası" adlandırıblar. Tarzənin təkmilləşdirdiyi Azərbaycan tarı Qafqazda və Orta Asiyada geniş yayılıb.

O, Azərbaycan muğamına bir sıra yeniliklər gətirib, "Segah", "Mirzə Hüseyn Segahı" və "Mahur"u təkmilləşdirib. Mütəxəssislər Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah" və "Çoban Bayatı"nın yaranmasının Sadıqcanın yaradıcılığı və Azərbaycan tarı ilə bağlı olduğunu bildiriblər. Bəstəkar Əfrasiyab Bədəlbəyli deyib: "Əgər nəzərə alsaq ki, muğamların ifasında tar çalğı alətləri içərisində əsasdır, onda Mirzə Sadığın tarının son nəticədə Azərbaycan musiqi sənətinin inkişafında dönüş yaratdığını inamla demək olar. Mirzə Sadıqdan başlayaraq Azərbaycan muğamlarının mahiyyəti, onların ifadə vasitələri, təsir gücü və ifa üsulları yeni bir mərhələyə qalxmışdır. Mirzə Sadıq Azərbaycan musiqisi tarixində yeni bir səhifə açmışdır".

Onun bəstəkar kimi də fəaliyyət göstərdiyi məlumdur. "Orta Segah" və "Bayatı-Şiraz" muğamlarına bir neçə rəng bəstələyib.

O, 1897-ci ildə Şuşada dini şəbeh üslubunda musiqili "Leyli və Məcnun"un tamaşaya qoyulmasında da iştirak edib. 1901-ci ildə isə Şuşada təşkil olunan Birinci Şərq konsertində Sadıqcan ilk dəfə tarda "Mahur" muğamını solo ifa edib.

Sadıqcan yalnız şənliklərdə, musiqi məclislərində iştirak etməyib, həm də Şuşa və Tiflisdə tamaşaların fasilələri zamanı konsertlər verib.

Sadıqcan getdiyi hər yerdə, iştirak etdiyi hər məclisdə hörmətlə, ehtiramla qarşılanan sənətkarlardan olub. Musiqi tədqiqatçısı Əbdülhəmid Babayev onu ilk dəfə 1897-ci ildə Bakıda, İçərişəhərdə Hüseyn bəy Ağayevin toyunda gördüyünü xatırlayaraq yazıb: "Cəmi Qafqazda belə gözəl tar çalan olmayıb. Sadığın çox gözəl camalı var idi. Ucaboy, enlikürək və cüssəli idi. O, məclisə çox ədəb və ərkanla girərdi. Camaat ona sonsuz hörmət bəslərdi. Onun əlində o qədər qüvvə var idi ki, tarı çox zaman mizrabsız çalardı".

Sadıqcanın ustadlığı barədə çox söhbətlər dolaşıb. Şahid olanlar onun tarla qaratoyuğa bir neçə kiçik təsnif və mahnıları öyrətdiyini söyləyiblər. Qurban Pirimov yazıb: "Bir gün Sadıq məndən xahiş etdi ki, onun üçün Gülablıdan bir bülbül gətirim. Mən də bir şeyda bülbül, bir də qaratoyuq apardım. Bir gün gəlib gördüm ki, o, qaratoyuğun qarşısına bir güzgü qoyub. Özü isə kənarda durub tar çalır. İndiki kimi yadımdadır. O, qaratoyuqların çöldə oxumalarına bənzəyən bir təsnif çalırdı. Güzgüdə öz şəklinə tamaşa edən qaratoyuq birdən başladı oxumağa. Mən təəccübdən yerimdə quruyub qaldım. Sadıq belə sənətkar idi. O, görünməmiş bir möcüzə idi".

Dövründə "Qafqazın birinci tarzəni" kimi tanınan Sadıq 1902-ci ildə 56 yaşında Şuşada vəfat edib. 1992-ci ilin mayında görkəmli tarzənin doğma şəhəri də erməni qəsbkarları tərəfindən işğal olundu. Ermənistan silahlı qüvvələri zəbt etdikləri Qarabağın və Şərqi Zəngəzurun digər əraziləri kimi, Şuşanı da dağıntılara məruz qoydular. Divarına Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən xatirə lövhəsi vurulmuş Sadıqcanın evi də ermənilər tərəfindən talan olundu. İşğalçı ermənilərin uçurub dağıtdıqlarını, yerləyeksan etdiklərini Azərbaycan dövləti böyük diqqət, qayğı və həssaslıqla yenidən qurur. Musiqi sənətimizin inkişafında böyük xidmətləri olan unudulmaz Sadıqcanın da evi bərpa ediləcək və yenidən musiqisevərlərin üz tutduqları doğma məkana çevriləcək.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Şəhid ailəsi göstərilən diqqətə görə minnətdarlığını bildirdi



**Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevin rayonun digər rəhbər şəxsləri ilə birlikdə Yəhərçi-Qazaxlar kəndində Vətən müharibəsi şəhidi Alıyev Laçın Rasim oğlunun ailəsini zyarət etməsi ailədə ruh yüksəkliyi yaratmışdır.**

Ziyarət zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda həyata keçirdiyi və dünya hərb tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi zamanı goranboyluların da, o cümlədən Laçın Alıyevin qəhrəmancasına döyüşdüyünü vurğulayan icra başçısı şəhidin əziz xatirəsini ehtiramla anmış, ailənin sosial qayğıları ilə maraqlanmışdır.

Şəhidin anası Məlahət Cavadova şəhid ailələri və qazilərin sosial qayğılarının həlli ilə bağlı dövlətimiz tərəfindən həyata keçirilən işlərə, göstərilən yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlığını bildirmişdir.

Qeyd edək ki, şəhid Laçın Alıyev Vətən müharibəsində aparılan döyüş əməliyyatlarında göstərdiyi fədakarlığa görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Şəhidlərin xatirəsi anıldı

**44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalan abşeronlu igidlərin əziz xatirəsi anılıb.**



"Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülən şəhid gizir Ziyəddin Rəşidovun 25-ci, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medallarına layiq görülən şəhid Anar İsgəndərovun 21-ci, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görülən Tərlan Məmmədovun 26-cı, "Vətən uğrunda", "Cəbrayıllın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Cəsur döyüşçü" medallarına layiq görülən Fuad Həşimovun 26-cı, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülən Elşən Müslümovun 27-ci doğum günləri qeyd edilib.

Anım tədbirləri ilə əlaqədar Abşeron Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Abşeron rayon təşkilatının üzvləri, şəhid ailələri və qazilər birlikdə Xırdalan şəhərindəki və Saray qəsəbəsindəki Şəhidlər xiyabanlarında uyuyan igid döyüşçülərin məzarlarını ziyarət ediblər. Torpaqların bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilib, ruhlarına dualar oxunub, məzarları üzərinə tər çiçəklər düzülüb. Şəhidlərimizin keçdiyi döyüş yolundan danışılıb, onların göstərdiyi nümunəvi hərbi xidmət və şücaətlərdən söz açılıb.

Bildirilib ki, "Dəmir yumruq" ətrafında birləşən Azərbaycan xalqı düşmən üzərində döyüş meydanında şərəfli qələbə qazanaraq torpaqları işğaldan azad edib. Vətən müharibəsi zamanı şəhid olanların adlarının əbədiləşdirilməsi istiqamətində müxtəlif layihələr icra olunub və bu işlər bundan sonra da davam etdiriləcək.

Daha sonra Ziyəddin Rəşidov, Anar İsgəndərov, Tərlan Məmmədov, Fuad Həşimov və Elşən Müslümovun yaşadıqları evlər ziyarət olunub, onların ailə üzvlərinə baş çəkilib.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Müharibə əlillərinin problemləri dövlət xətti ilə həll olunur

## Onların məşğulluğuna da dəstək verilir

**İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur.**
**...Ona görə hər bir dövlət məmurunun, nəinki dövlət məmurunun, hər bir insanın borcudur ki, onlara arxa, dayaq olsun. Yenə də deyirəm, dövlət və mən Prezident kimi daim onların problemləri ilə maraqlanıram, bu problemləri həll edirəm, daim onlarla bir yerdəyəm.**

**İlham ƏLİYEV**

Prezident, Ali Baş Komandan İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına uyğun olaraq, ötən ayın 2-dən etibarən Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb. Proqram "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunun qüvvəyə mindiyi 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuları və daxili işlər orqanları əməkdaşlarını, onlardan vəfat edənlərin vərəsələrini əhatə edir.

Dövlət başçısının rəhbərliyi altında Azərbaycan Ordusunun Vətən müharibəsində böyük zəfər qazanmasından sonra şəhid ailələrinin, müharibə əlillərinin, müharibə iştirakçılarının sosial müdafiəsi və onlara sosial dəstək daim diqqətdə olub. Postmüharibə dövründə 100 min şəxsə 193 min xidmət göstərilib ki, bunun da ən böyük istiqaməti sosial ödənişlərdir. Sosial ödənişlər çərçivəsində 94 min şəxsə 105 min sosial ödəniş təyin olunub. Bu ödənişlərin məbləğləri - ötən il sosial müavinətlər 60 faiz, bu il isə təqaüdlər 60 faiz artırılıb. Ödənişlərin mütləq əksəriyyəti sənədlərin elektron qaydada toplanması ilə əlaqədar şəffaf şəkildə icra edilib.

Son dörd il ərzində üç sosial islahat paketi ilə 4 milyon vətəndaşımız əhatə olunub. Onlar üçün illik 6 milyard manatlıq əlavə dövlət vəsaiti ayrılıb və nəticədə Azərbaycanda minimum əməkhaqqı üç-dörd il ərzində 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatıb. Minimum pensiyalar 110 manatdan 240 manata çatdırılıb, orta pensiya 75 faiz artıb. Sosial müavinətlər və təqaüdlər isə 3,5 dəfə artıb ki, bu da xüsusilə həssas təbəqədən olan insanları əhatə edir. Əlavə sosial islahatlar çərçivəsində təkcə sosial müavinət və təqaüdlərə də illik 1 milyard manat ayrılıb.

Yeni sosial paketə əsasən, 1997-ci il avqustun 2-dək hərbi xidmətdə xəsarətalma barədə məlumatlar aidiyyəti qurumlar tərəfindən müvafiq elektron sistemə daxil edilmiş, o cümlədən sığorta ödənişi alması üçün məhkəmə qətnaməsi olan 11 minədək şəxsə e-sistem üzərindən heç bir quruma müraciət etmədən ödəmə təyin olunaraq, onların bank hesablarına köçürülmüşdür. Xatırladaq ki, birdəfəlik ödəmə Azərbaycan Beynəlxalq Bankından (ABB) sosial ödəniş alan şəxslərin mövcud kartlarına ödənir. Bankda kartı olmayan, birdəfəlik ödəmə təyin olunmuş şəxslər yeni kartlarını bankın istənilən filialından şəxsiyyət vəsiqəsi ilə əldə edə bilərlər.

E-sistemlərdə, habelə müvafiq arxivlərdə aldığı xəsarətlə bağlı məlumat olmadığı üçün elektron qaydada ödəmə təyin edilməyən şəxslər isə xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına müraciət edirlər. Qeyd edilən sənəd aidiyyəti qurum tərəfindən e-sistemə daxil edildikdən sonra həmin şəxslər birdəfəlik ödəməni almaları üçün ərizə, şəxsiyyət vəsiqəsi, əlilliyin 1997-ci il avqustun 2-dək olan xidmət dövrü ilə bağlı təyin edilməsinə dair tibbi-sosial ekspertiza komissiyasının qərarı ilə DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə müraciət edirlər. Birdəfəlik ödəmə almaq hüququ olan şəxs vəfat edibsə, adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxırsa, həmin şəxsin vərəsəsi (vərəsələri) notariat orqanına müraciət edib vərəsəlik şəhadətnaməsini almalıdır. Bu barədə notariat orqanı tərəfindən nazirliyin e-sisteminə məlumat daxil olduqdan sonra vərəsəyə proaktiv ödəniş həyata keçirilir. Kiminsə adı sosial.gov.az saytında proaktiv ödəmə almaq hüququ olan şəxs kimi çıxmadıqda vərəsə (vərəsələr) xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdiyi qurumun hərbi-həkim komissiyasına müraciət edir. Sənəd daxil edildikdən sonra əgər vəfat etmiş şəxsin əlilliyinə dair e-sistemdə məlumat varsa, vərəsəlik şəhadətnaməsi əsasında vərəsəyə dərhal proaktiv təyinat həyata keçirilir və bu barədə ona məlumat verilir.

Əlilliyə dair e-sistemdə məlumat olmadıqda isə birdəfəlik ödəmənin verilməsi üçün ərizə, birdəfəlik ödəmə almaq hüququ olmuş hərbi qulluqçunun və ya daxili işlər orqanı əməkdaşının ölüm haqqında şəhadətnaməsi, vərəsəlik hüququ haqqında şəhadətnamə, vərəsənin (vərəsələrin) şəxsiyyət vəsiqəsi, vəfat etmiş şəxsə vaxtilə təyin edilmiş əlilliyin 1997-ci il avqustun 2-dək olan hərbi xidmət dövrü ilə əlaqədar olmasına dair tibbi-sosial ekspertiza komissiyasının qərarı (tibbi-sosial ekspertiza komissiyasının müayinə aktından çıxarış və s.) DOST mərkəzlərinə, vahid əlaqələndirmə mərkəzlərinə və ya DSMF-nin yerli bölmələrinə təqdim olunmalıdır. Qeyd edək ki, birdəfəlik ödəmənin məbləği I dərəcə əlilliyə görə 8 min 800 manat, II dərəcə əlilliyə görə 6 min 600 manat, III dərəcə əlilliyə görə 4 min 400 manat təşkil edir.

Xatırladaq ki, on bir min müharibə əlili və müharibə veteranı sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb olunub. Onlara 21 min reabilitasiya vasitəsi təqdim edilib. Artıq 200 nəfər Vətən müharibəsi əlili ən yüksək texnologiyalı dördüncü nəsil müasir protezlərlə təchiz olunub. Daha öncəki dövrdə Qarabağ müharibəsi əlillərindən 130 nəfər də bu protezlərlə təmin edilib. İndiyədək bu qəbildən olan protezlərlə təchiz edilən hərbçilərimizin sayı 330-a çatıb. Vətən müharibəsi əlillərindən protezləşməyən cəmi iki nəfər qalıb ki, onların da müalicə prosesi davam etdiyinə görə, hələlik texniki baxımdan bu, mümkün deyil. Amma tam hazırlıq var və həmin iki nəfərin müalicəsi bitdikdən sonra protezləşmə Vətən müharibəsinin bütün qazilərini əhatə etmiş olacaq. Bu işlərin əlaqələndirilməsi üçün ötən ilin avqustundan Prezidentin müvafiq fərmanı ilə Vahid Əlaqələndirmə Mərkəzi fəaliyyətdədir. Artıq 48 rayon üzrə 11 regional mərkəzdə yerli icra hakimiyyəti orqanlarının və 5 mərkəzi icra hakimiyyəti orqanının 26 növ xidməti bu mərkəzdə toplanıb. Bu günədək Vahid Əlaqələndirmə mərkəzlərində 41 min şəhid ailəsinin üzvü, Vətən müharibəsi veteranı və əlilinə xidmətlər göstərilib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, postmüharibə dövründə icra olunan sosial dəstək paketinin bir istiqaməti kimi, şəhid ailələri və qazilərdən ibarət 8 min şəxs üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik biznes sahələri, təsərrüfatlar qurulub. Qobustanda qazilər üçün yaradılan təsərrüfatlar bu sıradandır. Məqsəd onların kiçik biznesə yiyələnmələrinə şərait yaradılmasıdır. Hazırda bu proses davam edir.

Qobustanda özünüməşğulluq proqramı çərçivəsində Vətən müharibəsi veteranı Orxan Rəsulov üçün qurulan "Mebellərin kənar bantlanması" sexi və Vətən müharibəsi əlili Ülvi Niftalıyev üçün yaradılmış maldarlıq təsərrüfatı dediklərimizə bariz nümunədir. Xatırladaq ki, dövlət başçısının sərəncamları ilə Orxan Rəsulov "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", Ülvi Niftalıyev isə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunublar. Onlara müvafiq sosial ödənişlər də təyin olunub.

Yeri gəlmişkən, Dövlət Məşğulluq Agentliyi tərəfindən şəhid ailələri və qazilərə özünüməşğulluq proqramı çərçivəsində müvafiq dəstək tədbirlərinin göstərilməsi davam edir. Agentlik tərəfindən bu kateqoriyadan olan 150-dən çox şəxsə aktivlər təqdim edilib. Ümumilikdə agentlik tərəfindən cari ilin ötən dövrü ərzində mindən çox şəhid ailəsi, qazinin özünüməşğulluq proqramına cəlb olunması və proqram çərçivəsində onlar üçün kiçik təsərrüfatların yaradılması təmin edilib. Qeyd edək ki, proqrama cəlb olunan şəxslərə istehsal, xidmət və kənd təsərrüfatı üzrə biznes-zərflər təklif olunub.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilir

## "Şimal-Cənub nəqliyyat dəhlizi" ölkəmizin geosiyasi əhəmiyyətini artırır

**"Biz iki dəhliz üzərində yerləşirik - Şimal-Cənub və Şərq-Qərb. Əlbəttə, bu, Azərbaycanın geosiyasi əhəmiyyətini artırır və yeni iş yerlərinin yaradılmasına imkan verir. Biz "Şimal-Cənub nəqliyyat dəhlizi"nin "Şərq-Qərb dəhlizi" qədər vacib olacağı qənaətindəyik. Bizim üçün onlar bərabər dərəcədə əhəmiyyətlidir. Çünki hər iki dəhliz bizim ərazimizdən keçir".**

Bu sözləri Prezident İlham Əliyev Çernobbio şəhərində İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində deyib. Dövlət başçısı qeyd edib ki, Azərbaycan Xəzər dənizinin şərq sahillərindən neft və digər yük daşıyan hər növ gəmilər inşa edə bilir: "Biz dəmir və avtomobil yolları tikmişik. Çin və Mərkəzi Asiya ölkələrindən Azərbaycan vasitəsilə ixrac artmaqdadır və zənnimcə, artım 20 faiz səviyyəsindədir. Bütün bu işlər Rusiya-Ukrayna müharibəsindən əvvəl görülüb. Rusiya-Ukrayna müharibəsi Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal oldu ki, bu marşrut daha da yaxından nəzərdən keçirilməlidir".

### "Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyəti artmaqdadır

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan tərəfdaş ölkələrə yaxşı tariflər irəli sürür və bütün zəruri logistika dəstəyi təmin edir. Yəni açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir.

Dövlət başçısı həmçinin "Şimal-Cənub nəqliyyat dəhlizi"ndən də söz açıb və bildirib ki, bu dəhliz də Azərbaycandan keçir, başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmirlər. Yəni Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün cəlbedici olur.

Azərbaycan bu gün iqtisadi yüksəliş dövrünü yaşamaqla yanaşı, bir çox ölkənin müxtəlif sahələrdə əsas təchizatçısıdır. Ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında böyük rol oynayır, həmçinin dünyanın tranzit ölkəsinə çevrilir. Zaman göstərir ki, "Şərq-Qərb nəqliyyat dəhlizi" kimi, artıq "Şimal-Cənub nəqliyyat dəhlizi"nin də əhəmiyyəti artmaqdadır. Eyni zamanda bu beynəlxalq dəhlizdən istifadə imkanlarının genişləndirilməsi də gündəmdədir. Təbii ki, bu dəhliz vasitəsilə daşınmaların həcminin artması region ölkələri kimi, Azərbaycan üçün də böyük əhəmiyyət daşıyır. Bununla dövlət gəlirləri artır, həmçinin Azərbaycan bir çox ölkənin əsas tərəfdaşlarından birinə çevrilir.

### Qeyri-neft sektorundan daxilolmaların artmasına imkan yaranacaq

"Şimal-Cənub nəqliyyat dəhlizi"nin əhəmiyyəti barədə qəzetimizə açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, bu nəqliyyat dəhlizi Azərbaycan, bütövlükdə region üçün vacib layihələrdən biri hesab olunur.

Deputat qeyd edir ki, burada söhbət şimaldan başlayaraq yüklərin Hindistana qədər daşınmasından gedir. Bu da kifayət qədər böyük coğrafiyanı əhatə edir. "Şərq-Qərb nəqliyyat dəhlizi" kimi, bu dəhliz vasitəsilə də çoxlu yüklərin daşınacağı proqnozlaşdırılır. Nəzərə alsaq ki, Hindistanın ixrac imkanları artıb, eyni zamanda kifayət qədər böyük məhsullar idxal edən ölkələrdən biridir, onda bunun əhəmiyyətini başa düşmək olar. Tək Hindistan deyil, regionda yerləşən digər ölkələr də "Şimal-Cənub nəqliyyat dəhlizi"ndən aktiv şəkildə istifadə etmək niyyətindədirlər.




Vüqar Bayramov deyir ki, istər "Şərq-Qərb", istərsə də "Şimal-Cənub" dəhlizləri Azərbaycan üzərindən keçir. Ölkəmiz Şimal-Cənub dəhlizinin reallaşmasında maraqlıdır: "Azərbaycan yalnız layihəni dəstəkləmir, həmçinin onun reallaşması üçün İranda infrastruktura invesitisiya yatırır. Bu da ondan xəbər verir ki, Azərbaycan "Şimal Cənub nəqliyyat dəhlizi"nin reallaşmasına sərmayə qoyuluşları ilə dəstək verən ölkələrdəndir".

Deputatın sözlərinə görə, sərmayə qoyuluşu layihənin daha tez reallaşması, region ölkələrin bundan gəlir əldə etməsi baxımından vacibdir.

"Şimal-Cənub nəqliyyat dəhlizi"nin reallaşmasının Azərbaycanın dövlət gəlirlərinin artmasına imkan verəcəyini də vurğulayan deputat bu ilin birinci yarısında Azərbaycan üzərindən daşınan yüklərin həcminə 30 faiz artımın da qeydə alındığını söyləyir. İlin sonuna kimi bu rəqəmin daha yüksək olacağı gözlənilir.

Vüqar Bayramovun fikrincə, hazırda Azərbaycan üzərindən daşınan yüklərin həcmi artır. Bu da ondan xəbər verir ki, bir tərəfdən infrastrukturun genişləndirilməsi, digər tərəfdən Azərbaycanın qonşu ölkələrlə, xüsusən Gürcüstan və Qazaxıstanla birgə tarif siyasəti, beynəlxalq yük daşımalarla bağlı koordinasiya edilmiş fəaliyyətin həyata keçirilməsi regiona marağı artırır. Buna görə, məhz "Şimal-Cənub nəqliyyat dəhlizi" Azərbaycana valyuta gətirən layihələrdəndir.

Deputat sonda bildirib ki, bu nəqliyyat dəhlizi xüsusən qeyri-neft sektorundan daxilolmaların həcminin artmasına imkan verəcək.

Qeyd edək ki, dünya iqtisadiyyatının üzləşdiyi çətin dönəmdə Azərbaycan iqtisadiyyata mənfi təsirləri azaltmaq istiqamətində aktiv siyasət yürüdür. Bununla yanaşı, ölkəmiz Avropanın, həmçinin bəzi nəhəng ölkələrin əsas tərəfdaşına və xilaskarına çevrilərək, müxtəlif beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı, dəstəkçisi rolunda çıxış edir.

Həmçinin dünyada gedən müəyyən siyasi qütbləşmələr Azərbaycanın tranzit imkanlarına da maraqları artırıb. Bu da ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərindəki xüsusi əhəmiyyətini bir daha təsdiq edir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Beynəlxalq səyahətçilər Ağdamda ermənilərin törətdiyi vəhşiliklərlə tanış olublar





**Dünyanın 20-dən çox ölkəsindən 40-a yaxın beynəlxalq səyahətçinin işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzura səfəri davam edir.**

AZƏRTAC xəbər verir ki, beynəlxalq səyahətçilər Şuşa şəhərindən sonra Ağdama gəliblər. Sarıcalı kəndi ərazisində Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən qonaqlara ermənilərin işğal zamanı törətdikləri vəhşiliklər barədə məlumat verilib. Bildirilib ki, təkcə Sarıcalı kəndi deyil, digər yaşayış məntəqələri də erməni barbarlığına məruz qalıb. Səyahətçilər həmçinin Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumatlandırılıblar. Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə və yerləyeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdam şəhərinin yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qonaqlar həmçinin Ağdamda həyata keçiriləcək quruculuq işləri barədə də məlumatlandırılıblar.





# Dövlət sərhədi istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 7-si saat 21:00-dan sentyabrın 8-i saat 04:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Basarkeçər rayonunun Subatan və Tovuzqala rayonunun Çinarlı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən ordumuzun Kəlbəcər rayonunun İstisu və Tovuz rayonunun Ağdam yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Dünyada 773 milyon yetkin insan savadsızdır

## Qlobal pandemiya 24 milyona yaxın şagird və tələbənin heç vaxt normal təhsilə qayıtmayacağı təhlükəsini yaradıb

**İnsan ləyaqəti və insan hüquqları kontekstində savadlılığın əhəmiyyətini xatırlatmaq, daha savadlı və davamlı cəmiyyətlər yaratmaq üçün səyləri gücləndirmək məqsədilə 1967-ci ildən etibarən hər il dünyada Beynəlxalq savadlılıq günü qeyd olunur.**



UNESCO-nun məlumatına görə, son 50 ildə xüsusilə gənc əhali arasında savadlılıq səviyyəsi xeyli artıb. Lakin bu sahədə nail olunmuş tərəqqiyə baxmayaraq, hələ də əsas savadlılıq bacarıqlarına malik olmayan ən azı 773 milyon yetkin insan üçün bu problem aktual olaraq qalmaqdadır. Bunların da üçdəikisi qadınlardır.

Məlumata əsasən, dünyada baş verən münaqişələr, habelə Əfqanıstan, Yəmən və Ukraynadakı müharibələr səbəbindən milyonlarla adamın yerlərindən-yurdlarından didərgin düşməsi tədris ocaqlarının fəaliyyətinə də mənfi təsir göstərib.

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) məlumatına görə, 2022-ci ildə Əfqanıstanda 700 min, son illərdə isə ümumilikdə təxminən 5,5 milyon insan ev-eşiklərini tərk etmək məcburiyyətində qalıb. Ukraynada zərərçəkmiş 7,1 milyon adam didərgin düşüb, 2000-dən çox təhsil müəssisəsinə ziyan dəyib, 200-dən çox məktəb dağılıb.

Afrika və Cənubi Asiya regionunda savadlılıq səviyyəsi çox aşağıdır.

Saxaradan cənubdakı Afrika dövlətləri sakinlərinin 34 faizi savadsızdır. Bu, dünyada ən yüksək savadsızlıq səviyyəsidir.

Ümumiyyətlə, Afrika qitəsindəki ölkələrdə 6-11 yaşarası hər 5 uşaqdan azı biri məktəbə getmir. Dünyada savadlı qadınların sayı kişilərdən azdır. Son məlumatlara görə, qadınların savadsızlıq dərəcəsi 59 faiz təşkil edir.

Savadlılıq dərəcələrində gender fərqi Şimali Afrika, Mərkəzi və Şərqi Asiya, Avropa, Şimali Amerika, Latın Amerikası və Karib hövzəsi ölkələrində kiçik, Qərbi və Cənubi Asiya, Saxaranın cənubunda yerləşən Afrika ölkələrində böyükdür.

Araşdırmalar göstərir ki, COVID-19 pandemiyası nəticəsində 24 milyona yaxın şagird və tələbə heç vaxt normal təhsilə qayıtmaya bilər. Onlardan 11 milyonu qızlar və gənc qadınlardır.

Hazırda mövcud tədris məkanlarının transformasiyasına və savadlılıq üçün ömürboyu öyrənmə imkanlarının təmin edilməsinə ehtiyac var.

Bu il Beynəlxalq Savadlılıq Günü bütün dünyada "Savadlılığın öyrənmə məkanlarının transformasiyası" mövzusu altında qeyd olunacaq və davamlılığı artırmaq və hamı üçün keyfiyyətli, ədalətli və inklüziv təhsili təmin etmək üçün savadlılığın öyrənilməsi məkanlarının fundamental əhəmiyyətini yenidən nəzərdən keçirmək imkanı yaradacaq. 8-9 sentyabr 2022-ci ildə Fil Dişi Sahili Respublikasında keçirilən beynəlxalq tədbir çərşivəsində UNESCO-nun savadlılıq üzrə beynəlxalq mükafatlarının təqdimat mərasimi olacaq.

Bu beynəlxalq günü qeyd edərkən UNESCO təhsildə və ondan kənarda olan bütün aktorları gənclər, böyüklər və qadınlar arasında savadlılıq üçün səfərbər olmağa çağırıb. Belə ki, onların da azad yaşamaq və xəyallar qurmaq hüququ var.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərə dair müraciətlərinin həlli ilə bağlı müvafiq tədbirlər görülür. AZƏRTAC xəbər verir ki, sentyabrın 8-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Abşeron rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib. Qəbulda Abşeron və Zəngilan rayon sakinlərinin ərizə, müraciət və təkliflərinə baxılıb.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri əsasən qəyyumluq, ailə münaqişəsi, məişət zorakılığı, işlə təminat, ünvanlı sosial yardım almaq, sağlamlıq imkanları məhdud uşaqların müalicəsi və bir sıra digər məsələlərlə bağlı olub.

Vətəndaşların Dövlət komitəsinin səlahiyyət dairəsinə aid müraciətləri komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə dinlənilib, ərizələri qəbul edilərək, müvafiq tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib.

* * *

Sentyabrın 8-də baş prokuror Kamran Əliyev Siyəzən Rayon Prokurorluğunun inzibati binasında Siyəzən, Şabran, Xızı və Quba rayonlarının sakinlərini qəbul edib.

Kamran Əliyev qəbulda iştirak edən 27 vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, mülki xarakterli mübahisələrlə bağlı və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verib.

# Avropanın mavi qaz kabusu

**Son bir neçə ildə Qərblə Rusiya arasında siyasi münasibətlər gərginləşib. Belə ki, tərəflər heç cür anlaşa bilmirlər.**

Əvvəllər bu gərginlik diplomatik münasibətlərdə, bağlı qapılar arxasında baş verirdi. Rusiya Qərb tərəfindən beynəlxalq səhnədə ona ayrılmış rolla kifayətlənmək istəmirdi və bərabər status tələb edirdi. Qərb isə Rusiyadan onun üçün ayırdığı cizgidən çıxmamağı tələb edirdi. Bu münasibətlər Rusiya-Ukrayna müharibəsinə qədər qapalı şəkildə baş versə də, iki ölkə arasında başlanan savaşdan sonra açıq müstəviyə keçdi.

Hazırkı vəziyyəti siyasətçilər, hərbi ekspertlər və politoloqlar iki formada dəyərləndirirlər. Əksəriyyəti dünyanın üçüncü savaşın astanasında olduğunu bildirsə də, bir çoxları bunun artıq başlandığı, sadəcə olaraq öz adı ilə səsləndirilmədiyi qənaətindədir. İki ölkə arasında 6 aydan çox davam edən müharibə həqiqətən dünyanı sarsıdıb və bir çox böhranlara səbəb olub. Mütəxəssislər bu xüsusda üç əsas faktora diqqət yetirirlər. Birincisi, enerji, ikincisi isə taxıl böhranıdır. Bunların hər ikisi dünyaya öz mənfi təsirini göstərir. Üçüncü böhran qaçqınlarla bağlıdır. Rusiya-Ukrayna müharibəsi üzündən 11 milyona yaxın insan Ukraynanı tərk edərək Avropaya sığınıb. Müharibə davam edərsə, əlavə 4-5 milyon insanın da Avropaya sığınacağı barədə proqnozlar verilir.



Qərblə Rusiya arasında iqtisadi sahədə də münasibətlər gərginləşib. Xatırladaq ki, Avropanın qaz ehtiyacının 42 faizə qədəri Rusiya tərəfindən qarşılanırdı. İndi Rusiya "Şimal axını" boru kəməri vasitəsilə Qərbə qazın verilişini tam dayandırıb. Onu da vurğulayaq ki, Avropa ən çox qazı bu mənbədən əldə edirdi. Əvvəlcə Rusiya bunu texniki səbəblə əlaqələndirsə də, indi açıq şəkildə bəyan edir ki, Qərb Rusiyaya qarşı tətbiq olunan sanksiyalardan əl çəkməsə, Avropaya qaz verilməyəcək.

Artıq Avropada həyəcan təbili çalınır. Qarşıdan gələn qışda daha ağır duruma düşməməkdən ötrü müəyyən tədbirlər görülür. Avropa Komissiyası tərəfindən qaz anbarlarını 80 faizə qədər doldurmaq barədə qərar qəbul olunub. Bir çox ölkələr artıq bu həcmi keçib. Məsələn, Belçika, Çexiya, Danimarka, Fransa, Almaniya, İtaliya, Polşa, Portuqaliya və İspaniya anbarlara qeyd edilən həcmdə ehtiyat üçün qaz vura bilmişdir. Ancaq Avstriya, Bolqarıstan, Xorvatiya, Macarıstan və Latviya Avropa Komissiyasının qaz depolaşması barədə proqnozuna cəmi 55 faiz əməl edib. Bu fakt onu göstərir ki, qarşıdan gələn qış Avropada ciddi sosial-iqtisadi böhrana səbəb olacaq.

Çexiya və İtaliyada enerji daşıyıcılarının qiymət bahalığına qarşı etirazların baş verməsi birliyin üzvü olan ölkələrin siyasətçilərini də qayğılandırır. Hollandiyada isə enerji daşıyıcılarının qiymətinin baha olması üzündən bir neçə müəssisə fəaliyyətini dayandırıb. Bu həm də insanların iş yerlərinin itirilməsi deməkdir. Belə halların sosial gərginliyə səbəb olması ehtimalı güclüdür. Uzun illər sosial rifah içində yaşayan insanlar çətin ki, birdən-birə həyat səviyyəsinin aşağı düşməsi ilə razılaşsın. Bu üzdən sadə avropalılar siyasətçilərdən fərqli düşünürlər. Onlar Rusiya-Ukrayna müharibəsinin tezliklə bitməsini istəyirlər. Avropa KİV-ində də bu qəbildən olan xəbərlərin sayı getdikcə çoxalır. Ekspertlər qeyd edirlər ki, qışda bu cür hallar daha kəskin xarakter alacaq.

İndi hamı bir suala cavab axtarmağa çalışır. Avropa Rusiya qazı olmadan özünü mavi yanacaqla nə vaxt tam təmin edə bilər? Ekspertlərin fikrinə görə, bunun üçün ən azı 3-4 il vaxt lazım olacaq. Avropa indidən bu problemini həll etmək üçün alternativ mənbələr axtarır. Hazırda Qətərdən, Əlcəzairdən və ABŞ-dan sıxılmış qaz tədarük edir, həcmini artırmaq üçün yollar axtarır. Çünki gəmi vasitəsilə gətirilən sıxılmış qaz Avropanın mavi yanacağa olan tələbatının cüzi bir hissəsini ödəyir. Qitənin qaz təminatı üçün kəmərlə iri həcmdə qazın nəql edilməsinə ehtiyac var. Hazırda Avropada ən real variantlardan biri kimi Azərbaycan qazından istifadəyə üstünlük verilir. Çünki ölkəmizin təsdiq edilmiş qaz ehtiyatı 2,6 trilyon kubmetrdir. Bu kifayət qədər böyük həcmdir, Avropa üçün uzunmüddətli və etibarlı mənbədir.

Prezident İlham Əliyev sentyabrın 2-də İtaliyanın Çernobbio şəhərində bu ölkədə nəşr dilən "İl Sole 24 Ore" qəzetinə verdiyi müsahibəsində Avropaya qaz ixracı barədə demişdir: "Bizim bu il ümumi ixracımız 22-23 milyard kubmetr təşkil edəcək. Ancaq hasilatı artırmaq üçün yataqlara böyük sərmayə qoyulmalı və texniki imkanlar genişləndirilməlidir. Söhbət təkcə TAP-dan getmir. Biz TANAP-ı genişləndirməliyik. Biz TANAP-ı 16 milyard kubmetrdən 32 milyard kubmetrə qədər genişləndirməliyik. Bəli, bunun üçün bizə yeni kəmər tikmək lazım olmayacaq. Bizə yalnız kompressor stansiyalarının istifadəyə verilməsi lazım olacaq. Bu isə sərmayə gözləyir. Bir mühüm məqamı da qeyd etməliyəm ki, biz nə əvvəllər, nə də indi öz qarşımıza Avropa bazarında Rusiya qazı ilə rəqabətə girmək kimi hədəf qoymamışıq. Bizim öz yerimiz var. Biz Avropanın üç ölkəsi ilə, yəni İtaliya, Yunanıstan və Bolqarıstanla müqavilələr imzalamışıq. Avropanın digər ölkələrinin də tələbatı var və biz həmin tələbatı qiymətləndiririk. Sizin də qeyd etdiyiniz kimi, digər layihələr də var. Məsələn, Balkan dövlətlərinə qədər uzanan İon-Adriatik kəməri tezliklə istifadəyə veriləcək".

***Rüstəm KAMAL, "Azərbaycan"***

# İslam Gənclər Təşkilatının prezidenti İlahiyyat İnstitutunda olub

**İslam Gənclər Təşkilatının prezidenti Hammad Xan Azərbaycan İlahiyyat İnstitutunu (Aİİ) ziyarət edib.**



Aİİ-nin rektoru Aqil Şirinov qonağı ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Pakistan-Azərbaycan qardaşlığından bəhs edən institut rəhbəri 44 günlük Vətən müharibəsindən söhbət açaraq, həmin dövrdə, eləcə də Birinci Qarabağ müharibəsi zamanında Pakistan hökuməti və xalqı tərəfindən ölkəmizə göstərilən siyasi və mənəvi dəstəyə görə təşəkkürünü ifadə edib.

A.Şirinov ali təhsil müəssisəsinin fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə ətraflı məlumat verib. O, Aİİ-də mövcud ixtisaslar və təhsil pilləri haqqında söhbət açıb. Qeyd edib ki, institutda bakalavriat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır. Rektor eyni zamanda Pakistan Müsəlman İnstitutu ilə əməkdaşlıq əlaqələri haqqında da qonaqlara danışıb.

İnstitut rəhbəri ölkəmizdə mövcud dinlərarası münasibətlərdən bəhs edib. Rektor Vətən müharibəsindən sonra yerlə-yeksan edilmiş torpaqlarımızda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan quruculuq işlərini, dini ibadət ocaqlarının bərpasına verilən önəmi vurğulayıb.

Ətraflı məlumata görə minnətdarlığını ifadə edən İslam Gənclər Təşkilatının prezidenti Hammad Xan təmsil etdiyi qurum haqqında məlumat verib. Bildirib ki, İslam Gənclər Təşkilatı Qarabağ həqiqətlərinin dünyaya çatdırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirir. Qonaq Pakistanda mövcud dini təhsil haqqında danışıb, ikitərəfli əməkdaşlıq əlaqələrinin qurulmasının mümkünlüyünü vurğulayıb.

Görüş birgə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlərin müzakirəsi ilə davam edib.

***"Azərbaycan"***





# Mədəniyyət





● Azərbaycan teatrı

## Yeni mövsüm başlayır

**Teatrlarımız yeni mövsümün açılışına hazırlaşır. Ötən mövsümü həm repertuarlarında olan müxtəlif tamaşalar, həm də premyeralarla başa vuran yaradıcı kollektivlər artıq istirahətdən qayıdıb, işə başlayıblar.**



Bu mövsüm həm də Azərbaycan teatrı üçün olduqca əlamətdar bir hadisə ilə bağlı olacaq. Belə ki, 2023-cü ildə Azərbaycan teatrının yaradılmasının 150 illik yubileyi təntənə ilə qeyd ediləcək. Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı da bu tarixi hadisəyə öz töhfəsini verəcək. Bu barədə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının Mətbuat xirmətindən məlumat verilib. Bildirilib ki, hazırda bununla bağlı hazırlıq işləri aparılır.

Növbəti teatr mövsümünə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı sentyabrın 23-də "Zəfər yolu" tamaşası ilə başlayacaq. Tamaşa ardıcıl olaraq üç gün - sentyabrın 23-24-25-də nümayiş etdiriləcək. Qeyd edək ki, xalqımız üçün böyük bir hadisəyə - 44 günlük Vətən müharibəsinə həsr olunmuş "Zəfər yolu" tamaşasının premyerası ötən teatr mövsümündə keçirilib. Səhnə əsərinin müəllifi və quruluşçu rejissoru Xalq artisti Azər Paşa Nemətov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rejissoru isə Emil Əskərovdur.

Yeni yaradıcılıq işində teatrın bir çox tanınmış aktyorları rol alıblar. Belə ki, bu tamaşada Xalq artistləri Nurəddin Mehdixanlı, Əli Nur, Əməkdar artistlər Hicran Nəsirova, Elxan Quliyev, Mətanət Atakişiyeva, Mirzə Ağabəyli, Elnar Qarayev, Anar Heybətov, Ayşad Məmmədov, Mətləb Abdullayev, Elşən Rüstəmov, Rəşad Bəxtiyarov, aktyorlar Elçin Əfəndi, Xədicə Novruzlu, Rada Nəsibova, İlahə Həsənova, İlyas Əhmədov, Afət Məmmədova, Aylin Həşimova, Elsevər Rəhimov, Corc Qafarov, Tural İbrahimov, Ramin Şıxəliyev, Elnur Qədirov, Cümşüd Zeynalov, Cavidan Novruz və Vüsal Mustafayev çıxış edirlər.

Sentyabrın 28-də isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəsində "Medeya" mono-tamaşası nümayiş olunacaq. Həmin tamaşanın quruluşçu rejissoru Emil Əskərovdur. Əməkdar artist Münəvvər Əliyevanın çıxış edəcəyi mono-tamaşa teatrın Abbas Mirzə Şərifzadə adına səhnəsində təqdim olunacaq.

Sentyabrın 30-da Akademik Milli Dram Teatrının repertuarında maraqlı tamaşalardan olan "Ah, bu uzun sevda yolu" tamaşası yenidən nümayiş ediləcək. Səhnə əsəri dramaturq Əli Əmirlinin eyniadlı əsəri əsasında hazırlanan ikihissəli dramdır. "Ah, bu uzun sevda yolu" əsərində 1937-ci ilin repressiya siyasətinin güdazına getmiş istedadlı şair Mikayıl Müşfiqin nakam ömrü, yarımçıq qalmış yaradıcılığı və məhv edilmiş sevgisindən bəhs olunur.

Tamaşanın bədii rəhbəri və quruluşçu rejissoru Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru, Xalq artisti Azər Paşa Nemətovdur. Səhnə əsərinin rejissoru Anar Sadıqov, rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, bəstəkarı isə Xalq artisti Siyavuş Kərimidir.

Tamaşada rolları Xalq artisti Hacı İsmayılov, Əməkdar artistlər Anar Heybətov, Münəvvər Əliyeva, Ayşad Məmmədov və başqaları ifa edirlər.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı yeni teatr mövsümünü sentyabrın 18-də Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operası ilə açacaq.

Teatrdan verilən məlumata görə, səhnə əsərində Məcnun rolunda Xalq artisti Mənsum İbrahimov, Leyli rolunda isə gənc solist, Əməkdar artist Arzu Əliyeva səhnəyə çıxacaq, digər rolları isə Əməkdar artistlər Cahangir Qurbanov, Təyyar Bayramov və başqaları ifa edəcəklər.

Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Hafiz Quliyevdir. Səhnə əsərini dirijor Sevil Hacıyeva idarə edəcək.

Xatırladaq ki, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli 1908-ci ildə yazdığı, müsəlman Şərqində ilk opera sayılan "Leyli və Məcnun" həmin il yanvarın 12-də ilk dəfə səhnəyə qoyulub. Əsər 114 ildir Opera və Balet Teatrının repertuarındadır.

Sentyabrın 22-də Akademik Opera və Balet Teatrının səhnəsində bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baleti nümayiş olunacaq.

Teatrın Mətbuat xidmətindən verilən məlumata görə, dahi Nizami Gəncəvinin poemasının motivləri əsasında yazılmış bu səhnə əsəri Azərbaycan balet sənətinin incilərindən sayılır və hər nümayişində geniş tamaşaçı auditoriyası toplayır. Bəstəkar Qara Qarayev "Yeddi gözəl" baletini Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 800 illik yubileyinə həsr edib. İlk tamaşası 1952-ci il noyabrın 6-da Akademik Opera və Balet Teatrında keçirilib. 1978-ci ildə Qara Qarayevin 60 illiyi münasibətilə "Yeddi gözəl" baletmeysterlər R.Axundova və M.Məmmədov tərəfindən yeni versiyada səhnəyə qoyulub. Azərbaycanın balet ustaları bu tamaşa ilə bir sıra xarici ölkələrdə qastrol səfərlərində uğurla çıxış ediblər. Əsər Türkiyə, Rusiya və başqa ölkələrdə uğurla səhnəyə qoyulub.

"Yeddi gözəl" baleti 2008-ci ildə dahi bəstəkarın 90 illiyi münasibətilə tamamilə yeni quruluşda səhnələşdirilib. Tamaşanın quruluşunu beynəlmiləl yaradıcı heyət həyata keçirib. Libretto müəllifi Yana Temiz, quruluşçu baletmeysteri Vasili Medvedev, quruluşçu rəssamı Dmitri Çerbadjidir. Əsas partiyaları Əməkdar artist Nigar İbrahimova, eləcə də Anar Mikayılov, Timur Oduşev, Edvard Arazov, Samirə Səmədova, Elmira Süleymanova, Failya Bolqarova, Leyla Nərimanidze, Cəmilə Kərimova, Ayan Eyvazova və digərləri ifa edirlər. Tamaşaya Xalq artisti professor Cavanşir Cəfərov dirijorluq edir.

Növbəti teatr mövsümündə, sentyabrın 17-də Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı balaca teatrsevərləri daha bir tamaşa ilə sevindirəcək. Teatrın səhnəsində yazıçı Hans Xristian Andersenin "Düyməcik" nağılı təqdim olunacaq.

Musiqili nağıl-tamaşanın səhnələşdirəni və quruluşçu rejissoru teatrın baş rejissoru, Əməkdar artist Qurban Məsimov, quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Əməkdar artist Vüqar Camalzadədir. Rolları Əməkdar artist Cəmilə Allahverdiyeva, aktyorlar Rəhim Rəhimov, Samirə Nəcəfova, Nərmin Əhmədova, Yasin Abbasov və Ramiz Qəmbərov canlandıracaqlar.

Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında sentyabrın 17-də "Ələddin, şahzadə Jasmin və sehirli çıraq cininin sərgüzəştləri" adlı tamaşa nümayiş olunacaq.

Tamaşanın bədii rəhbəri, Xalq artisti Aleksandr Şarovski, rejissor və xoreoqrafı isə Raulya Turkkandır.

Teatrın Mətbuat xidmətindən bildirilib ki, əsərin səhnə tərtibatı Əməkdar mədəniyyət işçisi Aleksandr Fyodorov, geyim üzrə rəssamı Əməkdar mədəniyyət işçisi Olqa Abbasova, musiqi tərtibatı Əməkdar mədəniyyət işçisi Vladimir Neverova aiddir.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

● Xalq sənəti

**Sahib "Mahur-hindi" çalırdı. Mizrab "sehirli" simə toxunub şirmayi barmaqlar pərdələr üstə gəzişdikcə tar ahu-fəğan edirdi. Pəncərədən süzülüb ətrafa yayılan tar səsindən çox sevgilisini itirmiş, ürəyi yaralı bir gözəlin naləsinə bənzəyirdi.**

**Sahibin 41 yaşı var. 1980-ci ildə Bakıda musiqiçi ailəsində dünyaya gəlib. Xalq artisti professor Ağaverdi Paşayevin oğludur. Gözünü açıb evlərində musiqi səsi eşidib, tar görüb. Sahib də uşaqlıqdan könlünü musiqiyə verib, tarla sirdaş olub. İlk musiqi təhsilini Bülbül adına orta ixtisas musiqi məktəbinin fortepiano sinfində alsa da, sonralar təhsilini tar ixtisası üzrə davam etdirib. "Tar mənim həyatım, özümüifadə vasitəsidir. Tar mənim sirdaşım, dostumdur. Onu sinəmə sıxıb ürəyimin döyüntüsünü tara köçürəndə çox rahatlanıram. Bəzən düşünürəm ki, səs tardan, simlərdən yox, ürəyimdən süzülüb gəlir. Tar mənim musiqili inikasımdır".**



## 50 ölkədə, 70-dən çox beynəlxalq festivalda Azərbaycan musiqisini ifa edib

Sahibin ilk müəllimi atası professor Ağaverdi Paşayev olub. Sonralar not ixtisası üzrə Akif Novruzovdan, muğam üzrə isə Sərvər İbrahimovdan dərs alıb. Beynəlxalq müsabiqələr qalibi, dosent Sahib Paşazadə 2008-ci ildə "Tarın Paqaninisi" və 2015-ci ildən "Mirzə" titullarını daşıyır. 2011-2018-ci illərdə Prezident mükafatçısı olub. 2017-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilən dünyaşöhrətli 11-ci "Şərq təranələri" festivalında 70 ölkə arasında dünyada ilk alət ifaçısı kimi Qran-pri mükafatı qazanıb. 2018-ci ildə "Polşa və Azərbaycan respublikalarının müstəqilliyinin 100 illiyi" medalı, 2019-cu ildə Fransanın "Karyer-su-Puassi şəhər" medalı ilə təltif edilib. 2020-ci ildə Azərbaycan Prezidenti tərəfindən "Tərəqqi" medalı ilə təltif edilib. 2021-ci ildə Saxa - Yakutiya Respublikasının yaranmasının 100 illiyi münasibətilə təsis edilən qızıl medala sahiblənib.

Səhnədə ilk uğurunu 1996-cı ildə keçirilən ümumrespublika "Yaşıl yarpaq - 96" Respublika Radio Müsabiqəsinin qalibi olaraq qazanıb. Sahib Paşazadənin ilk debütü ona birinci yeri qazandırıb. Amma hər şey heç də asan başa gəlməyib.

### Ən yaxın dostum tarımdır

"16 yaşlı yeniyetmə idim. Sənətdə ilk uğurumu qazanırdım. Axşam televizorda qalibləri göstərirdilər. Həvəslə televizorun qarşısında oturub özümü görmək istəyirdim. Amma məni, birinci yeri tutanı yox, mənim əvəzimə başqasını göstərib ona tərif yağdırırdılar. Onu da başa düşdüm ki, çıxdığım bu yol heç də asan olmayacaq. Dostumdan çox həsəd aparanım olacaq. Gərək daha çox çalışam. Tarla dostluq edəm. Elə də etdim. Açığını deyim ki, indi mənim çox gözəl sənət yoldaşlarım var, onları çox sevirəm. Yeganə dostum isə tarımdır. O, mənim əlimdən tutub bütün dünyanı gəzdirir. Əl-ələ verib dolanırıq. Çox şükür, ikimizin birlikdə uğurlarımız heç az olmayıb", - deyir.

Sahib Paşazadə inanclı insandır. Bizimlə söhbət zamanı uğurlarına görə Tanrıya və tarına minnətdar olduğunu deyirdi: "Tarı sinəmə sıxanda özümü göyün yeddinci qatında zənn edirəm. Mənə elə gəlir ki, məni Yaradan, mənə uğur verən Allah görür və eşidir. Hər zaman Yaradanıma dua edirəm". Muğamdan söhbət edəndə tez-tez görkəmli xanəndə Alim Qasımovun adını çəkir. "Deyəsən, Alimin vurğunusan" deyə soruşdum: "Alim Qasımov dünyada muğamımızı tanıdan və düzgün təbliğ edən sənətkardır. Özünə hörmət qoyan insandır. Onu dünyanın böyük, tanınmış musiqi menecerləri özləri axtarıb tapıb, konsertlərini təşkil edirlər".




Sahib Paşazadə deyir: "Klassik musiqini, dünya ədəbiyyatını çox sevirəm. Vaxtım olanda Nikkolo Paqanininin, Ferenz Listin, S.Raxmaninovun, L.V.Betxovenin, V.A.Motsartın, Hacı Məmmədovun, Ramiz Quliyevin əsərlərini dinləyirəm. Dünya klassik ədəbiyyatını çox sevirəm. Tur Heyerdalı, Paulo Koelo, Robin Şarma, Ernest Hemenquy və Aleksandr Dümanı sevə-sevə oxuyuram. Hərdən düşünürəm ki, həyatım Dümanın Qraf Monte Kristo obrazına bənzəyir. O obrazla özüm arasında bir oxşarlıq görürəm". Sahib Paşazadə ona verilən "Mirzə" tituluna da aydınlıq gətirdi: "Mirzə" adını Bakı musiqi biliciləri verirlər. Bu adı ilk dəfə Mirzə Sadıq Əsəd oğlu - Sadıqcan alıb. Sonra Mirzə Fərəc Rzayev, Mirzə Mansur Mansurov və 100 illik fasilədən sonra Mirzə Sahib Paşazadə bu ada layiq görülüb".

Tarzən Sahib Paşazadə bu gün dünyanın müxtəlif ölkələrində, beynəlxalq musiqi yarışmalarında, festivallarda çox böyük uğurla Azərbaycan mədəniyyəti və incəsənətini təmsil edir. Almaniyada, İngiltərədə, Fransada, Kanadada ingilis dilində tardan "master klas" dərslər keçir, solo konsertlər verir. Özü də bu konsertlərin təşkilatçıları azərbaycanlılar yox, dünyaca məşhur, tanınmış musiqi menecerləri olur.

Sahib Paşazadə deyir ki, indiyə kimi 50-dən çox ölkədə, 200-ə yaxın şəhərdə Azərbaycan muğamını və musiqisini layiqincə təmsil edib, 70-dən çox beynəlxalq festivalda iştirak edib. Amma Səmərqənddə keçirilən XI "Şərq təranələri" festivalının həyatındakı rolunu, onun yaşatdığı xoşbəxtliyi heç nə ilə müqayisə edə bilmir.

### Səmərqənddə "Şərq təranələri" XI festivalı

Səmərqənd Özbəkistanın ən böyük, dünyanın ən gözəl şəhərlərindəndir. Burada Özbəkistanın, ümumilikdə Şərqin tarixi qorunub saxlanılır. 1978-ci ildən etibarən hər iki ildənbir Səmərqənddə muğam simpoziumu keçirilirdi. İndiyə kimi keçirilən simpoziumların hamısında azərbaycanlı ifaçılar, elm və incəsənət xadimləri iştirak ediblər. Bu simpoziumda ilk dəfə Azərbaycandan ustad tarzən Bəhram Mansurov, musiqişünas-alimlər Elmira Abbasova, Ramiz Zöhrabov, Zemfira Səfərova, ustad xanəndə Canəli Əkbərov iştirak ediblər.

Sonralar bu simpozium müsabiqə və festival şəklində keçirilməyə başladı. Ustad sənətkarlarımız Alim Qasımov və Ramiz Quliyev bu festivalın iştirakçıları olublar. Amma ölkəmizə festivalın baş mükafatını, Qran-prini 1997-ci ildə xanəndə Simarə İmanova, tarzən Zamiq Əliyev və mərhum kamança ifaçısı Ədalət Vəzirov qazandırıb. 1997-ci ildən 2017-ci ilə kimi Səmərqənddə keçirilən "Şərq təranələri" festivalında ölkəmizi təmsil edən muğam ifaçılarının heç birinə festivalın baş mükafatını almaq nəsib olmayıb.

Sahib Paşazadə o günləri belə xatırlayır:

- 2017-ci ilin yanvar ayı idi. İsveçrədən yenicə qayıtmışdım. "Muğam 2017" Televiziya Müsabiqəsinə hazırlıqlar gedirdi. Mədəniyyət Nazirliyindən zəng edib dedilər ki, Səmərqənddə "Şərq təranələri" festivalı keçiriləcək, bu yarışmada instrumental ifaçının iştirakının da mümkün olduğu bildirildi. Mən məmnuniyyətlə razı oldum. Hətta zəng edən şəxs dedi ki, "bir az yaxşı fikirləş, orada tarla nəsə edə bilərsən?" Dedim ki, əlbəttə, edə bilərəm. Bu, mənim çoxdankı arzumun gerçəkləşməsi idi. Bir neçə gün düşündüm ki, bəlkə tək tarla o qədər də maraqlı olmaz. Zərb ifaçısı Kamran Kərimovla görüşüb fikrimi ona bildirdim. İstəyirdim ki, məni nağarada Kamran müşayiət etsin. O, dərhal razılaşdı. Əvvəllər fikirləşirdim ki, festivalda "Mahur-hindi" muğamını ifa edərəm. Bu məqsədlə Mirzə Mansurdan tutmuş ta bugünün ifaçılarına qədər "Mahur-hindi" muğamına qulaq asmağa başladım. Özüm də yaxşı rənglər hazırladım. Kamranla məşqlərə başladıq. Festivala iki həftə qalmış hiss etdim ki, nə isə çatmır. Bu muğamla orada nə isə edə bilməyəcəm. Fikrimə gəldi ki, gedim Malik Mansurovla məsləhətləşim. Çünki, o həm belə festivallarda iştirak edib, həm də maraqlı ideyaları olan tarzəndir. Belə desək, yaxşı yenilikçidir. Biz görüşüb, məsələni olduğu kimi ona danışıb, məsləhət istədik. Malik müəllim mənə özünün kanon üçün hazırladığı bir kompozisiyasını ifa etməyi məsləhət bildi. Lakin onu da dedi ki, kompozisiyanı tək kanon ifa etməyib, 5 musiqiçi onu müşayiət edib.

Mən kompozisiyaya qulaq asıb çox bəyəndim. "Əhsəni" rəngi ilə başlayan 8-9 ritmdən ibarət "Şur" üstdə gözəl bir kompozisiya idi. Müxtəlif səs altları, maraqlı harmoniyalar, bir sözlə, ansamblın birgə ifa etdiyi kompozisiyanı mən 2 gün ərzində tarda öyrəndim. Sonra Malik müəllim üçün ifa etdim. O, qulaq asandan sonra dedi ki, "Sahib, sənin 2 günə öyrəndiklərini biz hardasa 6 aya öyrənmişdik". Bu minvalla biz cəmi 3 dəfə Malik müəllimlə görüşüb, müəyyən melodiyalar üzərində işlədik.

Nəhayət, 2017-ci il avqustun 23-də biz Kamranla yola düşdük. Onu da deyim ki, həmin il festivalda 70 ölkə təmsil olunurdu. Ümumən 500 musiqiçi vardı. Daha sonra musiqişünaslar, menecerlər, digər elm və incəsənət xadimləri... Özbəklər çox qonaqpərvər xalqdır. Bizim üçün möhtəşəm qarşılanma töreni təşkil olunmuşdu. Səmərqənddə bizi qarşılayan avtobusun üstündə "Azərbaycan - Sahib Paşazadə" sözlərini oxuyanda qürur hissi keçirdim.

### Festivalın ilk günü bizim çıxışımız oldu

Günorta saatlarında bizi səs yoxlanışı üçün konsert salonuna apardılar. Möhtəşəm zal, möhtəşəm səhnə, monitorlar, mikrofonlar xüsusi hazırlanmış vəziyyətdə idi. Mən tarın səsini yoxladım, Kamran da 3 alət aparmışdı. Nağara, bas nağara və zınqırov.

"Səhnədə çox həyəcanlı idim. Amma ilk notlardan bir az həyəcanım azaldı. Hiss etdim ki, məni maraqla dinləyirlər, hər bir yeni xalı, intonasiyanı alqışla qarşılayırdılar. Bu alqışlar məni daha da ruhlandırırdı. Xüsusən "Xarəzm türküsü" yerində bütün zal sanki lərzəyə gəldi, sürəkli alqışlar, fit səsləri salonu bürüdü. İnanın, səhnədə olduğumu da unutmuşdum. Sanki başqa bir aləmdəyəm. Öz dünyama qapanıb ifamı sona yetirdim. Sonra Kamran mənə dedi ki, 9 nəfərdən ibarət münsiflər heyəti və zal səni ayaq üstə alqışlayırdı...

Əvvəlki festivallarda ifaçılarla bərabər musiqişünaslar, Mədəniyyət Nazirliyindən nümayəndələr və digər şəxslər, təxminən 10-12 nəfər birlikdə iştirak edirdilər. İndi isə mən və Kamran səhnədə idik.

Allah məni istəyimə çatdırdı, zəhmətim hədər getmədi.

Festivalın yekununda dünyanın 9 ölkəsini təmsil edən münsiflər heyətinin yekdil qərarı ilə baş mükafata, Qran-priyə layiq görüldüm…

Təqdimatdan sonra münsiflər heyətinin üzvləri, dünyanın böyük musiqi şirkətlərinin sahibləri, məşhur musiqi menecerləri bizə yaxınlaşıb təbrik edir, bizimlə əməkdaşlığa maraq göstərir, öz təkliflərini verirdilər. Münsiflər heyətinin üzvü, Özbəkistanın Xalq artisii Munacat Yolçuyevanın mənə yaxınlaşıb dediyi sözləri Azərbaycan musiqisinə verilən dəyər kimi qiymətləndirirəm: "Sən bizi valeh etmişdin. Biz elə zənn edirdik ki, sən barmaqlarınla nağıl danışırsan".

Barmaqları ilə nağıl danışan Əməkdar artist Sahib Paşazadə Azərbaycan muğamını sirlər xəzinəsinə bənzədir. Bu sirrə vaqif olmaq üçün isə gərək bütün ömrün boyu çalışasan, deyir. O, bu gün Milli Konservatoriyada gənc tarzənlərə bu sirli dünyanın sehrini öyrədir.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

● Mədəniyyət xəbərləri

## Üzeyir bəy Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı keçiriləcək

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı müvafiq fərmana uyğun olaraq, ölkəmizdə 18 sentyabr - dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin doğum günü musiqi bayramı - "Üzeyir musiqi günü" kimi qeyd edilir.**




Hər il bu əlamətdar gün münasibətilə respublikamızda silsilə tədbirlər - konsertlər, sərgilər təşkil olunur. 2009-cu ildən etibarən isə sentyabr ayında Azərbaycan bəstəkarlıq məktəbinin banisi Üzeyir bəy Hacıbəyliyə həsr olunmuş Beynəlxalq Musiqi Festivalı keçirilir. Ənənəvi olaraq 18 sentyabrda başlanan festivalda görkəmli musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak ediblər.

Bu il də Üzeyir bəy Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalının keçirilməsi planlaşdırılır. 18-26 sentyabr tarixini əhatə edəcək festival üçün xüsusi konsepsiya işlənib hazırlanıb. Builki festivalın proqramı xüsusilə zəngindir və musiqisevərlərin könlünü oxşayacaq.

Festivalın əsas proqramı ilə yanaşı, "Üzeyir ənənəsinin sönməyən ulduzları" adı altında bu il yubileyləri olan musiqi xadimlərinə həsr olunan proqram və "Üzeyir sənətinin gənclik sədaları" adı altında gənclik proqramı da tərtib edilib.

Bu il Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Şuşa ili", habelə Fikrət Əmirovun 100 illiyi dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə festival çərçivəsində Şuşa şəhərində bir neçə tədbirin təşkili, eyni zamanda ölkəmizin digər şəhər və bölgələrində - Gəncə, Bərdə, Ağcabədidə konsert və tamaşaların nümayişi planlaşdırılıb.

Üzeyir bəy Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalına müxtəlif ölkələrdən solistlər, dirijorlar, kollektivlər dəvət olunub. Festivalda ABŞ, Norveç, Fransa, Avstriya, Almaniya, Türkiyə, Yunanıstan, Qazaxıstan, Bolqarıstan, Macarıstan, Rusiya, Yaponiya, Cənubi Koreya, Almaniya və Gürcüstandan musiqiçilərin iştirakı gözlənilir.

## "Xatirə və xəta" filmi ABŞ-da mükafata layiq görülüb

**Cəlaləddin Qasımovun "Xatirə və xəta" bədii filmi ABŞ-da keçirilən 19-cu "Accolade Qlobal" film yarışmasında uğur qazanıb. Belə ki, "Ən yaxşı bədii film" kateqoriyası üzrə "Accolade heykəlciyi"nə - qızıl mükafata layiq görülüb.**

Ssenari müəllifi, quruluşçu rejissoru və baş prodüseri Cəlaləddin Qasımov olan film koronavirusa qarşı mübarizədə həkimlərlə birlikdə öz həyatını təhlükəyə atan polis və müxbirlərin cəsarətinin geniş kütləyə çatdırılması məqsədilə çəkilib.

Filmdə əsas rolları Xalq artisti Sabir Məmmədov, Əməkdar artistlər Rövşən Kərimduxt, Flora Hüseynova, Mehriban Xanlarova, aktyorlar Əjdər Zeynalov və Rövşən Məmmədov ifa ediblər. Ekran əsərinin redaktoru Əkbər Qoşalıdır, montajı Elnur Tarverdiyevə məxsusdur.

## "Azərbaycan musiqisinin inciləri" adlı kitab nəşr olunub

**Azərbaycan Diasporuna Dəstək Fondunun təşəbbüsü və maliyyəsi ilə "Azərbaycan musiqisinin inciləri" adlı kitab nəşr olunub.**




Azərbaycan Respublikasının Himni və onun notları ilə başlayan, xalq və bəstəkar mahnılarından ibarət bu kitab Azərbaycan və ingilis dillərində tərtib edilib. 50 xalq və 32 bəstəkar mahnısının sözləri və notlarının qeyd olunduğu kitab xaricdə yaşayan, orada doğulub, boya-başa çatmış soydaşlarımızın milli vətənpərvərlik ruhunda yetişməsinə, mədəniyyətimizin təbliğinə, soydaşlarımızın professional səviyyədə musiqi biliklərinin artmasına töhfə verəcək. Kitabda həmçinin Azərbaycanın görkəmli bəstəkarları və müxtəlif xalq mahnıları haqqında ətraflı məlumat öz əksini tapıb. Sözügedən bu kitabın nəşr olunması dünya azərbaycanlıları və Azərbaycan musiqisinə maraq göstərən əcnəbilər tərəfindən milli musiqimizin öyrənilməsi və təbliğ edilməsi baxımından da aktualdır.

Kitab SSRİ-nin və Azərbaycan Respublikasının Xalq artisti, Dövlət mükafatı laureatı, Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylinin "Ön söz"ü ilə nəşr olunub.

Xatırladaq ki, "Azərbaycan musiqisinin inciləri" kitabı xaricdə yaşayan soydaşlarımız, dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları və Azərbaycan evləri ilə yanaşı, həmin ölkələrdə musiqi təhsili verən ali təhsil ocaqlarının kitabxanaları üçün də qiymətli əyani vəsait olacaq.

Kitab mədəni irsimizin beynəlxalq aləmdə tanıdılması üçün həyata keçirilən davamlı fəaliyyətin bir parçasıdır.

*Rəhman SALMANLI, "Azərbaycan"*

# Azərbaycan beş erməni hərbçisini qarşı tərəfə təhvil verib

AZƏRTAC Azərbaycan Respublikası Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına istinadla xəbər verir ki, Azərbaycan Respublikası humanizm prinsiplərini rəhbər tutaraq, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə 31 avqust 2022-ci il tarixdə Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə aparılmış müzakirələrin nəticəsində əldə edilmiş ikitərəfli razılaşmaya əsasən, sentyabrın 8-də aşağıda adları qeyd olunan 5 nəfər Ermənistan hərbçisini azad etmiş




və Azərbaycan-Ermənistan dövlət sərhədində qarşı tərəfə təhvil vermişdir:

Aqramanyan Martin Muşeqoviç - 23.05.1997-ci il təvəllüdlü Ermənistan Respublikasının vətəndaşı;

Gevorkyan Aşot Artakoviç - 30.06.1997-ci il təvəllüdlü Ermənistan Respublikasının vətəndaşı;

Qriqoryan Feliks Arşakoviç - 23.12.1996-cı il təvəllüdlü Ermənistan Respublikasının vətəndaşı;

Manukyan Varazdat Amuşavan - 07.07.1990-cı il təvəllüdlü Ermənistan Respublikasının vətəndaşı;

Hovsepyan Edik Tiqrani - 02.08.1999-cu il təvəllüdlü Ermənistan Respublikasının vətəndaşı.


*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Saatlı rayonu, Azadkənd kənd 320 şagird yerlik tam orta məktəbin tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu hər bir predmet üzrə 1500,00 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının inşa etdiyi analoji tikililər barədə "tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 29 sentyabr 2022-ci il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 07 oktyabr 2022-ci il saat 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 10 oktyabr 2022-ci il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Beyləqan rayonu, Kəbirli kənd 1 nömrəli 504 şagird yerlik tam orta məktəbin əsaslı təmiri və 320 şagird yerlik əlavə korpusun tikinti işlərinin satın alınması.

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun əsas şərtlər toplusunu hər bir predmet üzrə 1500,00 (bir min beş yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir.) Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.09.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı, probasiya şöbəsi və ya müvafiq kommersiya məhkəməsi tərəfindən təqdim olunmuş arayış);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən 01.09.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçının inşa etdiyi analoji tikililər barədə "tikinti obyektinin istismarına icazə" sənədinin surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (baş podratçı kimi analoji işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *AZS İSO 9001:2020; AZS İSO 14001:2020, AZS İSO 45001:2020 sertifikatları;*
- *iddiaçının tender təklifi (tender təklifinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 29 sentyabr 2022-ci il saat 11:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 07 oktyabr 2022-ci il saat 17:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 10 oktyabr 2022-ci il saat 15:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***






## OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC-nin rəhbəri vətəndaşlarla görüşəcək

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov sentyabrın 9-u saat 10:00-da Salyan şəhərində Salyan və Neftçala rayonlarından olan vətəndaşları qəbul edəcək. Qəbul Salyan Rayon İcra Hakimiyyətinin inzibati binasında (Təbriz Xəlilbəyli küçəsi, 136) keçiriləcək.

Qəbul mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən baş tutacaq.

Qəbulda iştirak etmək istəyən şəxslər Salyan Elektrik Şəbəkəsinə və ya "Azərişıq" ASC-nin 199 Çağrı mərkəzinə, onlayn isə **info@azerishiq.az** elektron poçt ünvanına müraciət etməklə qeydiyyatdan keçə bilərlər.

Vətəndaşların diqqətinə çatdırırıq ki, qəbul zamanı müraciətlər yalnız "Azərişıq" ASC-nin fəaliyyət istiqamətinə aid məsələlərlə bağlı olmalıdır.

Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı mövcud sanitar-epidemioloji vəziyyətə uyğun olaraq qəbulda peyvənd və ya immun sertifikatı, eləcə də əks-göstəriş sertifikatı olan şəxslər iştirak edə bilərlər.


*Təkrar*

## "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 100 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması məqsədilə

## *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanından (Əlaqələndirici şəxs: Anar Rəhimov, Telefon: (+99412) 310-07-70 (daxili: 2022), E-mail: arahimov@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 100 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması;

İştirak haqqı:

**LOT-1. 1,500.00 (bir min beş yüz) manat;**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:
**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: "Kapital Bank" ASC-nin Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) *Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
2) *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
3) *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış **(Tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);***
4) *İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış **(Tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);***
5) *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
6) *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 90 bank günü qüvvədə olmalıdır);*
7) *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
8) *Tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması və yaxud müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd- **Kommersiya məhkəməsindən və ya Dövlət Vergi Xidmətindən Yüklülük haqqında arayış (Tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);***
9) *Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması haqqında arayış **(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən məhkumluq ilə bağlı arayış alır);***
10) *Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış **(malgöndərən uçotda olduğu statistika orqanından alır);***
11) *Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış **(Tender elanı tarixindən sonrakı tarixə təqdim olunmuş arayış olmalıdır);***
12) *Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd **(vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);***
13) *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
14) Tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;
15) *İddiaçılar təklif etdikləri avtomobillərin həm şassisi, həm də üst qurğusu istehsalçısından Azərbaycan üzrə eksklüziv satış və servisini təsdiq edən istehsalçı firmanın etibarnaməsi avtorizasiya məktubunu (MAF) təqdim etməlidirlər. Sənədin əsli qiymət təklifi ilə birlikdə PDF formatında təqdim edilməlidir. **Sənəd təqdim edilmədiyi halda iddiaçının tender təklifi müsabiqədən kənarlaşdırılacaqdır.***
16) *Tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər. İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 2 nüsxədə ("Əsli" və "Surəti") təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir. Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30.09.2022-ci il saat 16:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10.10.2022-ci il saat 18:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 11.10.2022-ci il saat 16:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdənkənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir.

***Tender komissiyası***


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankının inzibati binalarında istismar olunan Avtomatlaşdırılmış Telefon Stansiyalarına servis xidmətinin satın alınması ilə bağlı keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 17 avqust 2022-ci il tarixli qərarına əsasən "ANTR" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müşaviri Elnur Hacıyevə əzizi

**VİLAYƏT MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6484**
**Sifariş 2514**
**Qiyməti 40 qəpik**